QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 056 (4798) **31 mart** 2015-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# 31 mart Azərbaycanlıların Soyqırımı Günüdür

*İlham Əliyev: "Hər bir işğalçı bilməlidir ki, bu işğalın sonu olmayacaqdır. Bu işğalın sonu ya sülh müqaviləsidir, ya da qaçılmaz məğlubiyyətdir."*



Səh 3

**İlham Əliyev: "Bizim kifayət qədər gücümüz var ki, öz sözümüzü deyək, bölgədə və qitədə gedən proseslərə təsir edək"** 5

**Müdafiə Nazirliyi: Son iki gündə ermənilər cəbhədə çoxlu itki veriblər** 6

**Nemat Şafik: "2014-2016-cı illər ərzində Ermənistanda inflyasiya və yoxsulluğun səviyyəsi daha çox artacaq"** 7

**"Fredoom House" kimin hüquqlarını qoruyur?** 8

## "31 mart soyqırımı zamanı 15 min azərbaycanlı qətlə yetirilib" 4

*...Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə 1918-ci ildə erməni millətçiləri tərəfindən törədilmiş bu qanlı faciənin tarixi haqda məlumat verib. Bildirilib ki, o vaxt "Böyük Ermənistan" yaradılması iddiaları ilə bağlı bu hadisələr zamanı 12 min, bəzi mənbələrə görə isə 15 min azərbaycanlı qətlə yetirilib. Şeyxülislam deyib: "Bizim xalqımız heç vaxt məbədləri dağıtmayıb, başqa xalqların nümayəndələrini öldürməyib. Bakıda və Bakı quberniyasında 1918-ci ilin mart hadisələri respublikada sovet hakimiyyəti qurmaq niyyətində olanlar tərəfindən törədilib. Naxçıvanda, Qarabağda, Şamaxıda, Qubada və başqa regionlarda da azərbaycanlıları kütləvi şəkildə qətlə yetiriblər. Qubadakı kütləvi məzarlıq buna əyani sübutdur"...*

4

**"Ermənilər törətdikləri cinayətləri ört-basdır etmək üçün saxta "soyqırımı" yaratdılar"**



6

**Vatikan ermənilərin arzusunu ürəklərində qoydu**



16

**"Kral mənəm, yeni kral olmayacaq"**



# "Bakı Ağ Şəhər" layihəsi paytaxtımızın simasını daha da gözəlləşdirəcək

## *Azərbaycan Prezidenti İlham Əliyev Bakı Ağ Şəhər bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə tanış olub*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Bakı Ağ Şəhər bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə tanış olub.***

Dövlətimizin başçısına layihə çərçivəsində görülən işlər barədə məlumat verildi. Bakı Ağ Şəhər bulvarı Prezident İlham Əliyevin tapşırığı ilə əvvəllər paytaxtın "Qara şəhər" kimi tanındığı və bir çox sənaye müəssisələrinin yerləşdiyi ərazisində ən müasir standartlara uyğun şəkildə salınır. 2013-cü ilin mayında Prezident İlham Əliyev tərəfindən təməli qoyulan yeni bulvarın inşası ekologiyası bərpa edilən sənaye zonasında həyata keçirilən və dünyanın ən iri müasir layihələrindən biri olacaq "Bakı Ağ Şəhər" layihəsini tamamlamaqla paytaxtımızın simasını daha da gözəlləşdirəcək. Prezident İlham Əliyev təməli qoyulduğu ilk gündən başlayaraq Ağ Şəhər bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə mütəmadi olaraq maraqlanır, vaxtaşırı tikinti meydançalarını gəzir, layihənin yüksək zövqlə icra olunmasına şəxsən nəzarət edir.

Bakı sakinlərinin və şəhərimizin qonaqlarının istirahəti üçün Ağ Şəhər bulvarında infrastruktur ən müasir tələblər səviyyəsində olacaq, müasir iaşə və xidmət obyektləri yaradılacaq. Burada dənizkənarı piyada yolları çəkiləcək, xüsusi yaşıllıq zonaları yaradılacaq, müxtəlif sahilbərkitmə işləri həyata keçiriləcək. Həmçinin bulvarda hərəkətin təhlükəsizliyini təmin etmək üçün piyada keçidləri də inşa ediləcək.







Bu nəhəng istirahət guşəsi sürətlə böyüyən və inkişaf edən Bakının görməli və gəzməli yerlərinə yeni bir ünvan da artıracaq. Bakı Ağ Şəhər bulvarı Ağ Şəhərdən Xəzərə açılan mənzərəni xüsusi bir yaraşıqla daha da cazibədar edəcək.

Dövlətimizin başçısı yeni bulvarın müxtəlif yerlərində aparılan inşaat işlərinin gedişi ilə maraqlandı və müvafiq tapşırıqlarını verdi.





# 31 mart Azərbaycanlıların Soyqırımı Günüdür

***XIX əsrin əvvəllərindən başlayaraq Qafqazda kütləvi şəkildə məskunlaşdırılan ermənilər az müddət sonra bölgəni sözün əsl mənasında “qan çanağı”na çevirdilər. Ermənilərin “Böyük Ermənistan” yaratmaq kimi qondarma ideyanın gerçəkləşməsi yolunda atdıqları addımlar azərbaycanlılara qarşı kütləvi qətllərin və soyqırımı aktlarının reallaşması ilə nəticələndi. Bu qanlı tarix qısa fasilələrlə bütün 20-ci əsr boyu dönə-dönə təkrarlandı. İndi o qanlı tarixdən - ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımından 97 il ötür.***



*İlham Əliyev: “Hər bir işğalçı bilməlidir ki, bu işğalın sonu olmayacaqdır. Bu işğalın sonu ya sülh müqaviləsidir, ya da qaçılmaz məğlubiyyətdir.”*

Tarix təsdiq edir ki, ermənilərin Qafqazda törətdikləri qırğınlar və soyqırımı aktları bir fakta əsaslanır. Onlar nəyin bahasına olursa-olsun Azərbaycan torpaqlarında məskunlaşmaq və aborigen xalq olduqlarını təsdiqləməyə çalışırdılar. Bu mənfur niyyəti reallaşdırmağın yolu isə azərbaycanlıların kütləvi soyqırımından, qanlı talanlardan və deportasiya siyasətindən keçirdi. 1918-ci ilin martında Bakıda və Azərbaycanın digər bölgələrində həyata keçirilən dəhşətli soyqırımı aktı ermənilərin Qafqazda məskunlaşması üçün bir açar oldu. Onlar bu vəhşi əməlləri ilə bir növ bu bölgədə yaşamaq və Azərbaycan türklərinin tarixi vətəni olan indiki Ermənistan ərazisində dövlət qurmaq niyyətlərini reallaşdırdılar. Azərbaycan Prezidenti İlham Əliyev indiki Ermənistanın yerləşdiyi ərazilərin qədim türk, Azərbaycan torpaqları olduğunu bildirib: “Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük. Halbuki sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır”.

Azərbaycan müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edildi. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulan həqiqətlər açıldı, təhrif edilən hadisələr əsl qiymətini aldı. Ümummilli Lider Heydər Əliyev 1998-ci il martın 26-da imzaladığı Fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi. Bununla da Azərbaycan tarixində erməni məsələsinə münasibətdə yeni strategiya müəyyənləşdi. Bu, həm də Azərbaycan xalqının əsrlər boyu üzləşdiyi məhrumiyyətlərə rəhbəri Heydər Əliyev olan dövlətin verdiyi əsl tarixi qiymət idi. Təsadüfi deyil ki, bu proses sonrakı mərhələdə Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdi. Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində artıq dünya və beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı. Azərbaycan Prezidentinin bu məsələdəki birmənalı mövqeyi təsdiqlədi ki, Dağlıq Qarabağın Azərbaycandan ayrılma mexanizmi yoxdur və heç vaxt da olmayacaq: “Ermənistanda başa düşməlidirlər ki, biz artıq orta əsrlərdə yox, XXI əsrdə yaşayırıq və XXI əsrin əlamətləri hər bir ölkə üçün əsas olmalıdır. Biz istəyirik ki, bölgədə sülh olsun. Biz istəyirik ki, beynəlxalq hüquq normaları təmin edilsin. Hər bir işğalçı bilməlidir ki, bu işğalın sonu olmayacaqdır. Bu işğalın sonu ya sülh müqaviləsidir, ya da qaçılmaz məğlubiyyətdir”.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə böhtanlara atan, siyasi və hərbi təcavüz həyata keçirən ermənilərin bu vəhşiliklərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması yönündə son illərdə bir sıra tədbirlər görülür. Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən kampaniya dünyanın bir çox şəhərlərini əhatə etməklə Azərbaycanın xaricdəki diplomatik nümayəndəliyini və diaspor təşkilatlarını da bu prosesə cəlb etdi. Fondun hazırladığı və nəşr etdirdiyi kitab və bukletlər, Xocalı soyqırımını əks etdirən fotoşəkillər mötəbər təşkilatlarda düzənlənən mərasimlərdə bir daha xarici ölkə vətəndaşlarının diqqətini Azərbaycan xalqının faciəsinə, ermənilərin isə vandalizminə yönəltdi. Fondun nəşr etdirdiyi “Qarabağ həqiqətləri” toplusu Azərbaycan həqiqətlərini bütün dünyaya tanıtdı. “Xocalıya ədalət” kampaniyası isə Azərbaycan gəncliyinin Qarabağ həqiqətlərini, münaqişənin həllində ölkəmizin ədalətli mövqeyini və Xocalı soyqırımını bütün təfərrüatı ilə dünya ictimaiyyətinin diqqətinə çatdırmaq baxımından müasir tariximizin mühüm mərhələsi oldu. Heydər Əliyev Fondunun hazırladığı Azərbaycan internet portalı isə ermənilərin yüz illər boyu xalqımıza qarşı yürütdüyü soyqırımı siyasətini daha mükəmməl formada beynəlxalq səviyyədə təqdim edir. 6 min səhifədən ibarət olan portalda ölkəmiz haqqında, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında istənilən məlumatı əldə etmək mümkündür.

Azərbaycan Prezidenti İlham Əliyev hər il 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Azərbaycan xalqına etdiyi müraciətində təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı iki yüz ilə yaxın bir müddətdə soyqırımı siyasəti həyata keçirdiyini qeyd edib. Prezident ermənilərin Azərbaycan xalqına qarşı soyqırımı siyasətinin müxtəlif dövrlərdə fərqli formalarda həyata keçirildiyini, kütləvi qətllər və hərbi əməliyyatlarla müşayiət olunduğunu xatırladıb: “XIX əsrin birinci yarısında İrandan və Osmanlı imperiyasından köçürülən ermənilər hesabına Qarabağ və Zəngəzurda demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905 və 1918-ci illərdə azərbaycanlı əhalinin kütləvi qırğınları, 1918-ci ildə tarixi Azərbaycan torpaqlarında Ermənistan dövlətinin yaradılması və Azərbaycanın ən mühüm mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərinin paytaxt kimi Ermənistana güzəştə gedilməsi, 1920-ci illərdə sovet hökuməti tərəfindən Zəngəzurun ermənilərə verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli torpaqlarından deportasiyası və digər faktlar soyqırımı tarixinin faciəli və qanlı səhifələridir”.

Tarix heç zaman unudulmur, həm də yazılır. Erməni vəhşilikləri Azərbaycan tarixinin qanla yazılmış səhifəsi olsa da, güclü Azərbaycan yerləşdiyi bölgədə söz və nüfuz sahibi olmaqla bütün problemlərin öhdəsindən gələn güclü dövlətdir.

**Ü.ƏSGƏROV**

# "31 mart soyqırımı zamanı 15 min azərbaycanlı qətlə yetirilib"





***Azərbaycanlıların Soyqırımı Günü ərəfəsində Qafqaz Müsəlmanları İdarəsində bu faciəyə həsr edilmiş tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Şəhidlər Xiyabanını ziyarət edib, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının məzarları və türk şəhidlərin xatirəsinə ucaldılan abidə önünə çiçəklər düzüblər. Müqəddəs Qurani-Kərimdən ayələr oxunub.***

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə 1918-ci ildə erməni millətçiləri tərəfindən törədilmiş bu qanlı faciənin tarixi haqda məlumat verib. Bildirilib ki, o vaxt "Böyük Ermənistan" yaradılması iddiaları ilə bağlı bu hadisələr zamanı 12 min, bəzi mənbələrə görə isə 15 min azərbaycanlı qətlə yetirilib. Şeyxülislam deyib: "Bizim xalqımız heç vaxt məbədləri dağıtmayıb, başqa xalqların nümayəndələrini öldürməyib. Bakıda və Bakı quberniyasında 1918-ci ilin mart hadisələri respublikada sovet hakimiyyəti qurmaq niyyətində olanlar tərəfindən törədilib. Naxçıvanda, Qarabağda, Şamaxıda, Qubada və başqa regionlarda da azərbaycanlıları kütləvi şəkildə qətlə yetiriblər. Qubadakı kütləvi məzarlıq buna əyani sübutdur".

Azərbaycanın müasir tarixində bu hadisələr bolşeviklərin dəstəyinə arxalanan ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı kimi qiymətləndirilir.

1998-ci il martın 26-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə 31 mart Azərbaycanlıları Soyqırımı Günü elan edilib.

Şeyxülislam qeyd edib ki, soyqırımı təkcə azərbaycanlılara qarşı törədilməyib, oxşar hadisələr Türkiyədə də baş verib.

Sonra dini liderlərə, parlamentlərə, beynəlxalq təşkilatlara Müraciətin mətni oxunub.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Bakı və Azərbaycan arxiyeskopu Aleksandr, Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri Melix Yevdayev və Azərbaycandakı Avropa yəhudiləri icmasının sədri Gennadi Zelmanoviç tərəfindən imzalanmış müraciətdə qeyd edildiyi kimi, iki yüz ildən artıqdır ki, erməni millətçiləri tərəfindən xalqımıza qarşı ardıcıl soyqırım və təcavüz siyasəti aparılır.

Müraciətdə deyilir: "Ermənilər tərəfindən Qarabağın və ətraf rayonların işğalı nəticəsində Azərbaycan ərazisinin 20 faizi zəbt edilib, torpaqlarımız parçalanıb. 1905-ci və 1918-ci illərdə ermənilər tərəfindən Bakıda, Naxçıvanda, Qarabağda, Şamaxıda, Qubada və digər bölgələrə azərbaycanlılara qarşı kütləvi qırğınlar törədildi, on minlərlə dinc sakin vəhşicəsinə qətlə yetirildi, yaşayış məntəqələri, tarix və mədəniyyət abidələri, məscidlər, kilsələr və sinaqoqlar dağıdıladı. Tarixi Azərbaycan ərazisi olan Zəngəzur heç bir əsas olmadan Ermənistana verildi, Dağlıq Qarabağda erməni muxtariyyəti yaradıldı. 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlı öz ata-baba torpaqlarında yaradılmış Ermənistandan kütləvi şəkildə qovuldu. Nəticədə indiki Ermənistan yaradıldı. Keçən əsrin 80-ci illərinin axırlarında Azərbaycan xalqının görkəmli oğlu, dünya miqyaslı dövlət xadimi Heydər Əliyev SSRİ rəhbərliyindən kənarlaşdırılandan sonra ermənilər yenidən 250 mindən çox azərbaycanlını doğma torpaqlarlından qovdular və ərazilərimizin 20 faizini işğal etdilər. Lakin dünya ictimaiyyəti bu faciələr haqqında həqiqəti yalnız ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra bildi. Ümummilli Liderin 26 mart 1998-ci il tarixli fərmanına əsasən, 31 mart rəsmən Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd edilməyə başladı. Erməni terrorçuları işğal etdikləri Qarabağ və ətraf rayonların ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 4 məlum qətnamənin tələbləri bu günədək yerinə yetirilməyib. Biz dünyanın dini ictimaiyyətini ermənilər tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş soyqırımına siyasi və hüquqi qiymət verməyə çağırırıq. Qoy Uca Yaradan hamımıza doğrunu yalandan seçməkdə və ədalətli olmaqda yardımçı olsun! AMİN!"

Tədbirdə Dini Qurumlarla İş üzə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Türkiyənin Azərbaycandakı müvəqqəti işlər vəkili Meral Barlas, akademik Vasim Məmmədəliyev, Azərbaycandakı dini konfessiyaların rəhbərləri çıxış ediblər.

Bu gün Azərbaycanda və dünyanın bir sıra ölkələrində 1918-ci ilin martında Bakıda, Şamaxıda və digər şəhərlərdə azərbaycanlıların kütləvi şəkildə qətlə yetirilməsi qurbanlarının xatirəsi gününə həsr edilmiş tədbirlər keçirilir.

## Mübariz Qurbanlı: "Ermənilər törətdikləri cinayətləri ört-basdır etmək üçün saxta "soyqırımı" yaratdılar"



"1918-ci ildə azərbaycanlılara qarşı ermənilərin törətdiyi qətllər bir soyqırımıdır. Bu cinayətlər bağışlanmır. Belə cinayətin müddəti yoxdur. Cinayətkarlar cəzasını mütləq alacaqlar". Bu barədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı Qafqaz Müsəlmanları İdarəsi tərəfindən keçirilən tədbirdə deyib.

M.Qurbanlı bildirib ki, Bakıda törədilmiş qırğınlar əslində Novruz bayramı ərəfəsində baş vermişdi: "Lakin bilirsiniz köhə və yeni təqvim arasında 13 gün fərq var. Ona görə də, biz 31 martı soyqırımı günü kimi qeyd edirik. İndiki Şəhidlər Xiyabanında o zaman minlərlə insan dəfn olunub. Xalq bunu yaddaşından silmədi və 1990-cı ildə həmin yerdə 20 yanvar şəhidlərini dəfn etməklə oranı Şəhidlər Xiyabanı adlandırdı".

Komitə sədri vurğulayıb ki, erməni xisləti daim güclünün tərəfində olmaqdır, onlar kiminsə himayəsinə sığınaraq Roma, Sasani və Osmanlı imperiyalarına arxadan zərbələr vurublar: "Amma törətdikləri cinayətləri ört-basdır etmək üçün saxta "soyqırımı" yaratdılar və bundan təbliğat vasitəsi kimi istifadə etməyə başladılar. Onlar İran, Türkiyə və Qafqazda böyük qırğınlar törədiblər. Amma ermənilər bu qırğınları törədənləri milli qəhrəman adlandırıb, onlara heykəllər qoyublar".

M.Qurbanlı qeyd edib ki, 31 mart soyqırımının qurbanları daim yad edilməli, bu məlumatlar yeni nəslə çatdırılmalıdır. O bildirib ki, ermənilərin bu hərəkətlərinin qarşısı alınmasa, bunlar başqa yerlərdə də təkrarlana bilər.

## Necdət Ünüvar: "31 Mart gününü türk dünyası unutmamalıdır"



Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri, TBMM-nin Səhiyyə, ailə, əmək və sosial işlər komissiyasının sədri Necdət Ünüvar 31 mart soyqırımının növbəti ildönümü ilə bağlı açıqlama yayıb. SİA-nın xəbərinə görə, açıqlamada deyilir: "Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 26 mart 1998-ci il tarixli fərmanı ilə 31 Mart günü "Azərbaycanlıların soyqırımı günü" elan edilib. Azərbaycan xalqının tarixdə dəfələrlə soyqırıma məruz qalmasına və bunları göstərən minlərlə sənəd və fotoşəkillər olmasına baxmayaraq, bir çox ölkə bu soyqırımlara səssiz qalıb. 31 Mart gününü hər azərbaycanlı və bütün türk dünyası unutmamalıdır. Bu tarix, 1918-ci ildə ermənilərin Azərbaycanda minlərlə qardaşımızı amansızlıqla qətlə yetirdiyi illəri ifadə edən və unudulmaması gərəkən bir gündür. Hər il 24 apreldə qondarma soyqırım iddiasıyla bütün dünyada tərəfdar toplamağa çalışanlar öz tarixlərində azərbaycanlı qardaşlarımıza qarşı törətdikləri sistematik qırğınları gizləməyə çalışırlar. Amma edilənləri özləri görməzlikdən gəlsələr belə, bu qanlı günləri tarix unutmayacaq. Soyqırımı qurbanlarının anım günündə soyqırımı səbəbi ilə şəhid olan azərbaycanlı qardaşlarımı hörmətlə yad edir, Allahdan rəhmət diləyirəm".

## Dünya birjalarında neftin qiyməti




Dünya birjalarında neftin qiyməti ucuzlaşmaqda davam edib. Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Layt" markalı neftin bir barrelinin qiyməti 0,73 dollar ucuzlaşaraq 48,14 dollar, Londonun İCE ("İnterContinental Exchange Futures") birjasında isə "Brent" markalı neftin bir barrelinin qiyməti 0,41 dollar azalaraq 56 dollar olub.

# Dünyada elə qüvvə yoxdur ki, Azərbaycan xalqının iradəsinə təsir edə bilsin

## *İlham Əliyev: " Bizim kifayət qədər gücümüz var ki, öz sözümüzü deyək, bölgədə və qitədə gedən proseslərə təsir edək"*

***Məlum olduğu kimi, iyun ayında Bakı şəhərində I Avropa Oyunları keçiriləcək. Bununla əlaqədar olaraq, həm dövlət, həm də sosium səviyyəsində beynəlxalq idman yarışmasının möhtəşəm şəkildə keçirilməsini təşkil etmək üçün bütün səylər birləşdirilib, güclər səfərbər edilib. I Avropa Oyunlarının yüksək səviyyədə təşkil edilməsi üçün Prezident İlham Əliyevin Sərəncamı əsasında yaradılmış və Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi sistemli, ardıcıl fəaliyyət sərgiləməklə, hazırlıq işlərini demək olar ki, yekunlaşdırıb. Yarışların keçiriləcəyi idman qurğularının inşasından tutmuş, hotellərin, taksilərin, avtobusların, müxtəlif xidmət sektorlarının yüksək iş səviyyəsinə gətirilməsinədək işlər həyata keçirilib. Bütün bu işlər isə sonda bir daha I Avropa Oyunlarının möhtəşəm şəkildə keçirilməsinə səbəb olacaq və Azərbaycan bir daha sübut edəcək ki, o, beynəlxalq tədbirlərin yüksək səviyyəli təşkilatçısıdır.***




> "Bu gün Azərbaycan istər iqtisadi inkişaf, istər dinlərarası dialoq baxımından nümunəvi bir ölkədir"

I Avropa Oyunlarına hazırlıq prosesində müşahidə olunan ən mühüm məqamlardan biri odur ki, Bakı şəhərinin və digər ərazilərin Avropadan gələcək minlərlə qonağı qəbul etməsi, onlara respublikamızın mehmanpərəstliyini nümayiş etdirmək üçün cəmiyyət də aktiv rol oynayır. Sosiumun müxtəlif təbəqələrindən olan insanlar fəaliyyət sahələrinə uyğun olaraq, qeyri-adi aksiyalarla bu yarışmanın yüksək səviyyədə keçirilməsinə öz dəstəklərini verirlər. Flaşmobların keçirilməsi, oyunlara 100 günün qalması ilə əlaqədar aksiyaların təşkil olunması söylənilən fikrə əyani sübutdur. Aydındır ki, Azərbaycan iki dəfə öz namizədliyini Yay Olimpiya Oyunlarının keçirilməsi üçün verib. Məhz o zaman rəy sorğuları nəticəsində müəyyən edilib ki, Azərbaycan əhalisi Olimpiya Oyunlarının Bakıda keçirilməsini dəstəkləyir.

Amma bütün söylənilənlərin əksinə olaraq, bəzi qərəzli dairələr özünə yer tapa bilmir və ölkəmizin əleyhinə çirkin kampaniya aparırlar. Eyni zamanda dırnaqarası ekspertlər, politoloqlar, keçmiş dövlət xadimləri, mətbuat orqanları sanki Azərbaycana qarşı soyuq müharibə elan ediblər. Lakin Prezident İlham Əliyevin bildirdiyi kimi, bütün bu səylərin heç bir nəticəsi yoxdur və ola da bilməz: "Dünyada elə qüvvə yoxdur ki, Azərbaycan xalqının iradəsinə təsir edə bilsin".

Bu, ilk növbədə onunla bağlıdır ki, Azərbaycanda bütün azadlıqlar təmin edilib, azad cəmiyyət formalaşıb. Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə keçirilən tədbirdə çıxış edərək qeyd etmişdi ki, Azərbaycanda hər kəs azaddır: "Azad mətbuat təmin edilib. İnternetə heç bir məhdudiyyət qoyulmur, azad internet var. Sərbəst toplaşmaq azadlığı təmin edilib. Vicdan, din azadlığı bəzi ölkələrdən fərqli olaraq tam şəkildə təmin edilibdir. Ancaq bizi ittiham etmək istəyən dairələrin öz ölkələrindəki vəziyyətə baxın. Bax, elə dünən Avropanın mərkəzində yüzlərlə nümayişçi döyülərək, söyülərək həbs edilibdir. Başqa yerlərdə insanlar boğularaq, güllələnərək öldürülürlər. Heç kim də buna görə məsuliyyət daşımır. Haradadır o qeyri-hökumət təşkilatları ki, bizi ittiham edirlər? Niyə susurlar? Niyə öz səslərini ucaltmırlar? Niyə o ölkələri ittiham etmirlər? Cürətlərimi çatmır? Yoxsa ki, bu, ikili standartlar siyasətidir?! Yəqin ki, hər ikisidir. Nə üçün beynəlxalq qurumlar bəyanatlar yaymırlar, vermirlər? Nə üçün qətnamələr qəbul edilmir? Bax, bu suallara cavab almaq çox çətindir. Mən həm xarici həmkarlarımla, həm beynəlxalq təşkilatların rəhbərləri ilə çoxsaylı görüşlərimdə bu sualları açıq şəkildə onların üzünə deyərək verirəm. Bəlkə buna görə də Azərbaycana qarşı təzyiqlər daha da kəskinləşir. Əfsuslar olsun ki, bu gün dünya siyasətində beynəlxalq hüquq yox, riyakarlıq, ikili standartlar, ayrı-seçkilik, irqçilik, islamofobiya, ksenofobiya hökm sürür. Budur bugünkü reallıqlar. Ona görə, biz buna hazır olmalıyıq və biz hazırıq. Biz ölkəmizi gücləndiririk, ölkəmizi inkişaf etdiririk. Bir daha demək istəyirəm ki, Azərbaycanda bütün azadlıqlar mövcuddur - siyasi azadlıqlar, vicdan azadlıqları, iqtisadi sərbəstlik. Bu gün Azərbaycan istər iqtisadi inkişaf, istər dinlərarası dialoq baxımından nümunəvi bir ölkədir".

Xatırlatmaq yerinə düşər ki, bu gün hər tərəf alovlanır, Yaxın Şərq, Avropa, MDB məkanı, ya qanlı toqquşmalar, yaxud da ki, etnik, dini zəmində qarşıdurmalar, qarşılıqlı ittihamlar baş verir. Lakin Azərbaycanda bütün millətlərin, dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Bu da əlbəttə ki, Azərbaycan hakimiyyətinin siyasətidir, xalqın da sifarişidir.

Azərbaycan bu gün dünya üçün əhəmiyyətli ölkəyə çevrilib və ölkəmizi beynəlxalq aləmdə dəstəkləyən ölkələrin sayı durmadan artır. Dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyi ilə seçilib. Qoy Azərbaycanı ittiham etməyə çalışan ölkələr 155 ölkənin dəstəyi ilə seçilsinlər, görək necə seçilirlər. Bax, budur reallıq. Ona görə, əlbəttə ki, Azərbaycan xalqını bu ədalətsizlik, ikili standartlar siyasəti, riyakarlıq və siyasi mədəniyyətsizlik üzür. Ancaq bu, ölkəmizin iradəmizə heç vaxt təsir edə bilməz.

Bu baxımdan Avropa Oyunları sadəcə olaraq bir bəhanədir. Prezident İlham Əliyevin sözləri ilə desək, sanki bəzi xarici qüvvələr var ki, bunu bizə çox görürlər: "Baxmayaraq ki, biz öz üzərimizə böyük məsuliyyət götürmüşük. Yəni bu oyunları iki il yarım ərzində hazırlamaq çox çətin məsələdir. Bu oyunlar Olimpiya Oyunlarının səviyyəsində keçiriləcək. Olimpiya Oyunlarını keçirmək üçün yeddi il vaxt verilir. Biz isə cəmi iki il yarıma bunu edirik və ən aşağı büdcə ilə bunu edirik. Dünən Avropanın mərkəzində nümayişçilərin etirazına səbəb bir binanın inşası olmuşdur. Bizim bütün Avropa Oyunlarına hazırlıq işlərinə xərclədiyimiz vəsait bir binaya xərclənib. Bəs haradadır "Transparency İnternational"? Niyə bu işlərdə öz sözünü demir? Avropada nəqliyyatla bağlı bir infrastruktur obyekti var. On ildir inşa edilir. Bizim Avropa Oyunlarının hazırlanmasına xərclədiyimizin ikiqatı qədər oraya pul xərclənib, hələ ki, tikintisi qurtarmayıb. Bəs niyə bu barədə danışmırlar? Niyə bu barədə yazmırlar? Bu, ritorik suallardır. Ancaq biz bu sualları verməliyik və veririk. Çünki biz ədalətin tərəfdarıyıq. Hər yerdə ədalət olmalıdır - cəmiyyətdə, ailədə, beynəlxalq münasibətlərdə. Ədalət pozulduqda hər şey pozulur, inam pozulur. Sanki dünyada yeni dəyərlər sistemi formalaşır. Ədalət əvəzinə qeyri-ədalətli yanaşma, bərabərlik əvəzinə qeyri-bərabərlik, düzgünlük əvəzinə riyakarlıq, yalan. Bax, biz buna qarşı mübarizə aparırıq. Əlbəttə, Azərbaycan böyük dövlət deyil, amma bizim də kifayət qədər gücümüz var ki, öz sözümüzü deyək, bölgədə və qitədə gedən proseslərə təsir edək".

***"Səs" Analitik Qrupu***

# Sumqayıt gəncləri yeni zirvələrə doğru

*Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatı gənclər birliyinin IV hesabat-seçki konfransı keçirilib*




***Dünən Sumqayıt şəhər Gənclər Evində Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatı gənclər birliyinin IV hesabat-seçki konfransı keçirilib.***

Konfransa Azərbaycan Respublikası Dövlət Himninin səsləndirilməsi və 31 mart soyqırımı qurbanlarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə start verilib. Tədbiri açan YAP Sumqayıt şəhər təşkilatının sədri Asif İmaməliyev bildirib ki, gündəlikdə başlıca olaraq əsas üç məsələ dayanır. Bunlardan Sumqayıt YAP GB-nin ötən dövr ərzindəki hesabatı, təşkilati məsələlər və YAP GB-nin aprel ayında keçiriləcək ümumrespublika IV hesabat-seçki konfransına nümayəndələrin seçilməsi təşkil edir: "Ötən ilin sonundan etibarən YAP GB-nin şəhər və rayon təşkilatlarında ümumrespublika seçki konfranslarının keçirilməsinə start verilib. Məhz bu məqsədlə də YAP Sumqayıt təşkilatı gənclər birliyinin nümayəndələri də öz hesabat-seçki konfransını keçirirlər. Konfransa 120 nümayəndə seçilib. Hazırda bu konfransın işində 116 nəfər iştirak edir. Beləcə konfrans səlahiyyətlidir".

YAP Sumqayıt şəhər təşkilatının GB-nin sədri Elvin Məmmədzadə çıxış edərək ötən dövr ərzindəki görülən işlərdən danışıb: "1992-ci ildə uçurum kənarında olan ölkəmizi yalnız Ümummilli Lider Heydər Əliyevin xilas edəcəyini başa düşən bir qrup vətənpərvər şəxslər öz azadlığını hətta həyatı üçün yarana biləcək təhlükədən qorxmayaraq Naxçıvan MR-ə gedərək məhz Ulu Öndərin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaratdılar. YAP o vaxtkı mövcud vəziyyətə bütün Azərbaycan xalqının mənafeyinə xidmət etmək üçün və xalqın o ağır dövründə ölkəmizin qarşısında duran məsələlərin həll edilməsi üçün zamanın tələblərinə uyğun olaraq yaranmış bir partiyadır. Qısa bir zamanda YAP xalqın böyük əksəriyyətinin etimadını qazandı və güclü siyasi qüvvəyə çevrildi. YAP şərəfli və çətin yol keçərək ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir və müstəqil dövlətimizin qüvvətlənməsində, qüdrətlənməsində və inkişafında müstəsna rol oynayır. Ulu Öndərin dünənin, bu günün və gələcəyin partiyası dediyi YAP, yarandığı gündən Ümummilli Liderin siyasi kursuna sadiqliyi, dövlət qarşısında xidmətləri, ölkənin davamlı sürətli inkişafındakı uğurları, atdığı imzalarla cəmiyyətdəki nufuzunu ildən-ilə möhkəmləndirir. YAP bu gün öz sıralarında 650 minə yaxın ən layiqli nümayəndələrini birləşdirir".

Tədbirdə çıxış edən Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Elşən Baxşəliyev diqqətə çatdırıb ki, bu gün sözün həqiqi mənasında Azərbaycan gəncliyinin müstəqil, inellektli cəmiyyətin aparıcı qüvvə kimi formalaşması birmənalı olaraq dövlətin apardığı gənclər siyasətinin nəticəsində mümkün olub: "Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan bu siyasət möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Gənclərin məşğulluğunun təmin edilməsi, onların mənafelərinin qorunması dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi istiqamətində məqsədyönlü işlər görülür. Son illərdə gənclərlə bağlı görülən işlər xüsusilə təqdirəlayiq hal kimi dəyərləndirilməlidir. Bu gün dünyada baş verən siyasi hadisələrin fonunda Azərbaycan inkişaf edir. Təbii ki, bu, Cənab Prezidentin apardığı siyasətin nəticəsində mümkün olub. 2015-ci ildə dövlət başçısının iştirakı ilə Sumqayıt Gənclər Evinin açılışı sumqayıtlı gənclərə bir hədiyyə idi".

Sumqayıt şəhər icra hakimiyyətinin başçısının müavini Elgin Həbibullayev Azərbaycanda gedən hüquqi, demokratik proseslərdən danışdı: "Bu gün hamamız dünyada gedən prosesləri görürük və orada baş verən xaosların şahidi oluruq. Hətta bəziləri bu prosesləri I Dünya müharibəsində baş verənlər kimi səciyyələndirirlər. Artıq müxtəlif dövlətlər öz iddialarını açıq şəkildə ortaya qoyurlar. Təbii ki, belə bir anda hər bir ölkənin gənclərinin üzərinə böyük məsuliyyət düşür. İndi ikili standartlardan çox danışırlar. Belə götürdükdə ikili standart anlayışının özü XIX əsrdə yaranıb. Amma sevindirici haldır ki, bütün bunların fonunda ölkəmiz günü-gündən inkişaf edir və beynəlxalq arenada öz sözünü deyir. Heç şübhəsiz ki, bu kursun əsasını Ümummilli Lider Heydər Əliyev qoyub, ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirir".

Daha sonra təşkilati məsələlərə baxılıb. YAP Sumqayıt şəhər GB-nın yeni sədri seçilib, onun müavinləri və GB-nın şura və idarə heyətlərinin üzvləri müəyyənləşib. Eləcə də YAP GB-nın aprel ayında keçiriləcək ümumrespublika IV hesabat-seçki konfransına nümayəndələr seçilib.

Sonda YAP Sumqayıt şəhər təşkilatı gənclər birliyinin IV hesabat-seçki konfransının qətnaməsi oxunub və Prezident İlham Əliyevə müraciət qəbul olunub.

***Ceyhun RASİMOĞLU***

## Seymur Orucov: "Gənclər siyasəti Azərbaycanda həyata keçirilən dövlət siyasətinin ən mühüm istiqamətlərindən biridir"



"Bu gün gənclər siyasəti Azərbaycanda həyata keçirilən dövlət siyasətinin ən mühüm istiqamətlərindən biridir". Bu fikri YAP Gənclər Birliyinin sədri, partiyanın Siyasi Şurasının üzvü Seymur Orucov deyib. S.Orucov bildirib ki, Prezident İlham Əliyev gəncliyin inkişafını daim diqqət mərkəzində saxlayır. Onun sözlərinə görə, bu istiqamətdə müxtəlif dövlət proqramlarının icrası da buna sübutdur. "Prezident İlham Əliyev tərəfindən "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncamın imzalanması bir daha dövlətimizin gəncliyə verdiyi önəmin parlaq göstəricisidir. Biz YAP Gənclər Birliyi olaraq bu sənədin təbliği ilə bağlı bir çox tədbirlər həyata keçirəcəyik. Çünki həmin sənədi oxuduqda görürük ki, burada bütün kateqoriyadan olan gənclər nəzərə alınıb. Xüsusilə də, bu gün regionlarda gənclərin inkişafı, məşğulluğunun təmin edilməsi ilə bağlı məsələlər var. Həmin sənədin təbliği ilə də bağlı təşkilatımız bütün imkanlarını səfərbər edir"- deyə, S.Orucov qeyd edib.

## Eldar İbrahimov: "Ərzaq təhlükəsizliyinin təmin olunmasında toxumçuluğun inkişafı mühüm amildir"



"Həyata keçirilən düzgün siyasət nəticəsində neftdən əldə edilən gəlirlər qeyri-neft sektorunun, o cümlədən, iqtisadiyyatımızın prioritet sahələrindən olan kənd təsərrüfatının inkişafına yönəldilir". Bu fikri Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov deyib. E.İbrahimov bildirib ki, ərzaq təhlükəsizliyinin təmin olunmasında toxumçuluğun inkişafı mühüm amildir. Onun sözlərinə görə, toxumçuluq həm bitkiçiliyin, həm də heyvandarlığın intensiv inkişafını təmin edən amildir. "Ona görə də, biz çalışmalıyıq ki, əsas ərzaq məhsullarının becərilməsi üçün tələb olunan həcmdə yüksək reproduksiyalı toxum istehsalı təmin olunsun. Əgər hansı əsas ərzaq məhsulunun istehsalı üçün lazım olan toxumu xaricdən alırıqsa, bu, o deməkdir ki, ölkəmiz həmin məhsula görə idxaldan asılıdır. Fərəhli haldır ki, ölkə Prezidentinin Sərəncamı ilə Dövlət Toxum Fondunun yaradılması qərara alınıb və müvafiq göstərişlər verilib. Hesab edirik ki, hökumət bu Fondun imkanlarından istifadə edərək elit toxum istehsalının xüsusi çəkisinin hazırkı 1,3 faiz səviyyəsindən 10-12 faizə çatdırılması üçün əsaslı tədbirlər görəcəkdir" - deyə E.İbrahimov vurğulayıb.

## Müdafiə Nazirliyi: Son iki gündə ermənilər cəbhədə çoxlu itki veriblər



Son iki gündə cəbhədə gedən döyüşlər zamanı erməni tərəfi erməni mediasında yayılan rəqəmlərdən qat-qat çox itki verib. Bunu Trend-in sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı bildirib. O, qeyd edib ki, Azərbaycan Müdafiə Nazirliyi martın 29-30-da ermənilərlə cəbhədə döyüşlərin olduğunu təsdiq edir. Lakin erməni tərəfinin itkiləri heç də erməni mediasında bildirildiyi kimi 7 nəfər yox, daha çoxdur: "Sadəcə, hələ onların qeyri-rəsmi formada açıqladıqları budur. Yəqin ki, ermənilər hələ öz itkilərini dəqiqləşdirməklə məşğuldurlar. Konkret olaraq dünən axşam gedən döyüşlərdə erməni tərəfinin çoxlu itkiləri olub və bu itkilər göstərilən rəqəmlərdən qat-qat artıqdır. Yəqin ki, onlar itkilərini yavaş-yavaş, tədricən ortaya çıxaracaqlar. Erməni ordusunda vərəmin və digər xəstəliklərin yayılmasına gəlincə, biz dəfələrlə demişik ki, erməni tərəfi həm döyüşlərdəki, həm də xəstəliklər nəticəsində olan itkilərini gizlədir. Bu barədə yayılan məlumatlar isə həqiqətdir". V.Dərgahlının sözlərinə görə, Ermənistanın hərbi-siyasi rəhbərliyi xalqına yalan danışmaqla məşğuldur. Əslində, erməni ordusunda intizamsızlıq baş alıb gedir: "Martın 22-də biz tərəfə keçən erməni hərbçisi Andranik Qriqoryan da məhz bu səbəblərdən döyüş mövqeyini atıb qaçmışdı. Onun səngər yoldaşları öz həmkəndliləri olduğu üçün ona atəş açmamışdılar. Ermənistanın müdafiə naziri həmin əsgərin valideynlərini günahkar çıxarır. Valideynlər isə bildiriblər ki, hərbi hissələrdə baş verən intizamsızlıq nizamnamədənkənar münasibətlərdir, özbaşınalıqlardır".

# Dağlıq Qarabağ münaqişəsi - Ermənistanı uçuruma aparan yol

*Nemat Şafik: "2014-2016-cı illər ərzində Ermənistanda inflyasiya və yoxsulluğun səviyyəsi daha çox artacaq"*

***Ermənistan gələcəyini onu idarə edən ölkəyə, keçmişini isə ideyalarını eybəcərləşdirən "tarixçi"lərə verərək millətçilik və şovinizm bataqlığına yuvarlandığından vəziyyəti çox ağırdır. Keçmişlə gələcək arasında əlaqəni qıran, məntiqlə təmasları qoparan və siysətini xülyalara əsaslandıran işğalçı ölkənin halını orada yaşayan ermənilər təbii ki, hamıdan yaxşı bilirlər. Ona görə də belə məkanı tərk edərək mühacirətə üz tutan ermənilərin sayı günbəgün artır. Yerevanın yaydığı rəsmi məlumatlarda bildirilir ki, ilin əvvəlindən bəri Ermənistanı tərk edənlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 10 faiz artıqdır.***






Adi ermənilər acından ölməmək üçün ölkədən qaçmaq və müxtəlif dövlətlərdə iş aramaq məcburiyyətindədirlər. Elə buna görədir ki, Sarkisyan iqtidarının mənsubları and-aman edirlər ki, gedənlər həmişəlik yox, müvəqqəti gedirlər və müşahidə olunan da "sadəcə, əmək miqrasiyası"dır. Amma erməni ekspertləri bildirilər ki, "bu qədər həyasızlıq olmaz". Bir də nə itirib, nə axtarırsınız, Sarkisyanın ətrafı da özü kimi həyasızlaşmış sifətə malikdir. Çünki hər an partlamağa hazır barıt çəlləyinin üstündə oturmaq, təbii ki, Rusiyanın marionetkası olan Serj Sarkisyana sərf etmir və o, mühacirətin güclənməsini ölkədəki narazı kütlənin zəifləməsi kimi qəbul edir. Eyni zamanda, siyasi baxımdan aktiv ermənilər ölkədən çıxaraq başqa dövlətlərə üz tutur və orada yaşayırlarsa, Ermənistanda qalan ailə üzvlərinə, qohumlarına mütəmadi olaraq pul yollayırlar. Həmin pullar da Sarkisyan üçün əlavə gəlir mənbəyi rolunu oynayır".

"Ermənistanda iqtisadi artım çox cüzi, inflyasiya qeyri-stabil, ödəmə balansındakı defisit çox yüksək, yoxsulluq səviyyəsi isə kifayət qədər yüksəkdir". Bu sətirlər Beynəlxalq Valyuta Fondunun yaydığı hesabatda yer alıb. "Lragir" fonda istinadən yazır ki, Ermənistanda cari il ərzində ən optimal halda təxminən 4 faizlik iqtisadi artım proqnozlaşdırıla bilər. İnflyasiya isə 5 faiz təşkil edəcək. Beynəlxalq Valyuta Fondu hesab edir ki, 2014-2016-cı illər ərzində inflyasiya 4-5 faiz arasında dəyişəcək. Məlumatda qeyd edilir ki, Beynəlxalq Valuyta Fondu Ermənistanda iqtisadi aktivliyi dəstəkləmək üçün 82 milyon dollar kredit ayrımaq haqqında qərar qəbul edib. Kreditin ayrılmasında əsas məqsəd qarşıdakı iki il ərzində inflyasiyanı və yoxsulluğu nisbətən azaltmaqdır. Beynəlxalq Valyuta Fondunun direktoru Nemat Şafik bildirib ki, analoji kredit 2010-2013-cü illər ərzində də Ermənistana ayrılıb: "Amma bu müddət ərzində Ermənistanda iqtisadi artım çox cüzi olduğu halda inflyasiya və yoxsulluğun səviyyəsi artıb. Kreditlərin ayrılmasına baxmayaraq Ermənistanda işsizlik və yoxsulluğun səviyyəsi yüksək olaraq qalır". "Aykakan Jamanak" yazır ki, fevral ayında Ermənistanda həyat 4,6 faiz bahalaşıb: "Bu ilin fevaral-mart aylarında Ermənistanda bir çox məhsullar və xidmətlər ikirəqəmli templə bahalaşıb. Əhalinin gündəlik olaraq istifadə etdiyi yumurta ötən ay 15,6 faiz, süd məhsulları 9,8, tərəvəzlər 7,5 faiz, qənnadı məhsulları 7 faiz, uşaq paltarları 8,5 faiz, uşaq ayaqqabıları 15,6 faiz, ayaqqabılar isə 11 faiz bahalaşıb. Ötən ay tibbi xidmətlər 6, kommunal xidmətlər 19,5, təhsil isə 7,2 faiz bahalaşıb". Rəsmi rəqəmlərə əsasən, bütün əhali qrupu üzrə pensiyalar da azalıb. Ötən il ərzində orta pensiyalar bir il əvvəlki illə müqayisədə 575 dram azalaraq 29114 dram təşkil edib.



## Dağlıq Qarabağ münaqişəsi - Ermənistanı uçuruma aparan yol

Siyasi fəlsəfə elmləri doktoru, professor, politoloq Elman Nəsirli "Səs" qəzetinə verdiyi açıqlamasında işğalçı dövlətin iqtisadi və demoqrafik vəziyyətinin pisləşdiyini bildirib: "Bu məsələ ölkə hakimiyyətini narahat etmir. Bu ölkədə yalnız yoxsul insanlar qalıb yaşayırlar, imkanlılar isə oranı tərk edirlər. Təbii ki, münaqişənin həlli prosesinə xarici təsirlər də mane olur. Xüsusilə erməni lobbisinin rolu qeyd edilməlidir. Erməni lobbisi Dağlıq Qarabağ münaqişəsi ətrafında hazırkı gərgin vəziyyətin qorunub saxlanmasında maraqlıdır. Bu istiqamətdə də fəaliyyətlərini davam etdirir."

"İşğalçı ölkədə yaranmış bu durum Ermənistanı yox olmaq təhlükəsi qarşısında qoyur" -deyən E.Nəsirli son vaxtlar Ermənistan prezidentinin hakimiyyəti əlində saxlamaq üçün ölkəni repressiyalara məruz qoyduğunu bildirib: "Bu fikri Ermənistan prezidentliyinə keçmiş namizəd Andreas Qukasyan mətbuata verdiyi açıqlamasında da bildirib. Bu gün, həqiqətən də Ermənistan hökuməti çətin durumdan özünü sığortalamaq üçün ölkəni repressiyalara məruz qoyur. Ümumiyyətlə, Ermənistan hakimiyyəti elementar sabitliyi təmin etmək iqtidarında deyil. Vətəndaşlara yalnız ölkəni birdəfəlik tərk etmək, xaricdə iş axtarmaq, və yaxud fəal etiraz yolu ilə öz haqlarını bərpa etmək və xalqı viran etmiş hökumətin hakimiyyətdən getməsinə nail olmaq qalır".

E.Nəsirli onu da bildirib ki, yuxarıda qeyd olunan real faktlar Ermənistanın Azərbaycanla müharibə aparmaq qabiliyyətini çoxdan itirdiyini bir daha təsdiqləyir: "Sadəcə havadarlarının dəstəyi sayəsində hələ ki, Dağlıq Qarabağ münaqişəsində status-kvonu saxlaya bilir. Amma bu, uzun müddət davam edə bilməz. Çünki Ermənistan əhalisi nəhayət anlamalıdır ki, Dağlıq Qarabağ münaqişəsinin mövcud olduğu hər an Ermənistanı uçuruma aparır. İkinici bir məqam isə, son zamanlar beynəlxalq sanksiyalar nəticəsində Ermənistanın ən böyük dolanışıq yeri olan Rusiyanın iqtisadi vəziyyətinin ağırlaşması, eyni zamanda, Rusiya ilə Türkiyə arasında yaxınlaşmanın müşahidə olunması Ermənistanı daha da çətin duruma salıb və ölkə üçün heç də yaxşı gələcək vəd etmir. Belə vəziyyətdə Ermənistanın yeganə çıxış yolu işğalçı qoşunlarını Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarmaqdan keçir".

Göründüyü kimi, indi seçim Ermənistan hakimiyyətindədir: ya sülh, ya da hərb yolu ilə işğal edilmiş Azərbaycan ərazilərini tərk etmək. İkinci seçimin Ermənistan üçün böyük fəlakət olacağı isə təkcə işğalçı ölkədə yox, dünyada da qəbul edilən qaçılmaz reallıqdır. Beləliklə, bütün bu deyilənlər bir daha onu göstərir ki, Ermənistan əvvəlki illərdə olduğu kimi, cari ili də sosial partlayış, uğursuz dövlət siyasəti ilə başa vuracaq.

***A.SƏMƏDOVA***

## Dünya Xəbər Agentlikləri Bakıya nə vaxt toplaşacaq?




***2016-cı ildə Bakıda təşkil ediləcək V Dünya Xəbər Agentlikləri Konqresinin keçiriləcəyi tarix müəyyənləşib. SİA-nın AZƏRTAC-a istinadən verdiyi məlumata görə, Dünya Xəbər Agentlikləri Konqresi Şurasına daxil olan SPA, Press Association, AZƏRTAC, Associated Press, Reuters, EFE, TASS, TELAM agentlikləri, həmçinin EANA, OANA və FANA informasiya təşkilatlarının rəhbərləri tərəfindən verilən qərara əsasən V Konqres 2016-cı il noyabrın 16-17-də Bakıda keçiriləcək.***

AZƏRTAC-ın ev sahibliyi edəcəyi V Konqresdə dünyanın hər yerindən aparıcı xəbər agentlikləri, elektron və sosial media, həmçinin televiziya şirkətlərinin iştirakı gözlənilir. Toplantıda 2016-2019-cu illərdə Dünya Xəbər Agentlikləri Konqresinə sədrlik Azərbaycan Dövlət İnformasiya Agentliyinə keçəcək. Eyni zamanda, Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Assosiasiyasının (OANA) XVI Baş Assambleyasının da Bakıda V Dünya Xəbər Agentlikləri Konqresi ilə bir vaxtda - 2016-cı il noyabrın 18-də keçirilməsi ilə bağlı razılıq əldə olunub. Xatırladaq ki, 2016-2019-cu illərdə OANA-ya da AZƏRTAC sədrlik edəcək.

## Vahid Əhmədov: "Burada ermənilərin də əli var"



"Azərbaycanda keçiriləcək ilk Avropa Oyunları ilə bağlı ölkəmizə qarşı aparılan qarayaxma kampaniyasında düşmənimiz olan ermənilərin də əli var". Bu barədə Trend-ə Milli Məclisin deputatı Vahid Əhmədov deyib. V.Əhmədov qeyd edib ki, dünyada Azərbaycana qarşı ikili standartlar fəaliyyət göstərir: "Bu çirkli kampaniyanı aparan təşkilatlar nə vaxt Azərbaycana qarşı ədalətli mövqe sərgiləyiblər ki? Digər tərəfdən də Azərbaycanı gözü götürməyən qüvvələr, beynəlxalq təşkilatlar var ki, ölkəmizin bugünkü inkişafını görmək istəmirlər və ona görə də belə qarayaxma kampaniyası aparırlar". Millət vəkili əlavə edib ki, bu gün Azərbaycan iri beynəlxalq layihələr həyata keçirir: "Dünyanın bir çox ölkələri belə layihələr həyata keçirə bilmir və buna görə də Azərbaycanın bu uğurunu gözü götürməyən təşkilatlar var. Bu baxımdan Azərbaycana qarşı belə kampaniya gözlənilən idi". V.Əhmədov vurğulayıb ki, bu kampaniyanın heç bir nəticəsi olmayacaq və Azərbaycan bu tədbirdə də ona göstərilən etimadı doğruldacaq. O, həmçinin ilk Avropa Oyunlarının Azərbaycan üçün faydalarından danışıb: "İlk Avropa Oyunları Azərbaycan üçün lazımlı bir məsələ idi. Çünki bu idman tədbiri ilk dəfə Azərbaycanda keçirilir və ölkəmizin dünyaya böyük təqdimatıdır. Bu, Azərbaycanın mustəqilliyinin möhkəmləndirilməsi və siyasi əhəmiyyətinin gücləndirilməsi üçün vacib tədbirdir. Biz yalnız bu günü deyil, eyni zamanda, belə tədbirlərin Azərbaycan üçün gələcək faydalarını nəzərə almalıyıq".



## PARAZİTİN BİRİ DƏ AZALDI

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Əli Kərimlinin züytutanı Natiq Ədilov da belə getdi...Fransaya! Düz Eyfel qülləsinin yanına ki, birdən orada da Fransa hökuməti onun "söz azadlığını pozub-eləsə, çıxsın həmin məşhur qülləyə və atsın özünü təpəsi aşağı yerə, adını da qoysun siyasi intihar. Yəni N.Ədilov üçün ölkə, dövlət, Vətən, ya da ki, milli qeyrət hissi yoxdur. Dünən azərbaycanlıydı, bu gün də olub fransız. Hətta lazım gələndə, daha öncələr olduğu kimi, arada erməni olmağı da bacarır bu kərata. Özü də ermənidən betər erməni.***

### Gül kimi Güləhməd kişinin nankor, naxələf və nakişi oğlu

Biz biləni, onun kimi, yəni gül kimi Güləhməd kişinin təəssüf ki, nankor, naxələf və nakişi oğlu N.Ədilov üçün erməni, fransız, hətta urus olmasının heç bir fərqi yoxdur. Çünki belələrinin Vətən, millət, dövlət anlayışı yoxdur, olmayıb və olmayacaq da. Əslində, elə olmasa yaxşıdı. Çünki belələri zərərli, zəhərli, ziyanverici, qeyri-səmərəli həşəratlardan daha betərdirlər. Məsələn, barama ipək verir, arı bal verir. Yəni onlar səmərəvericidirlər. Amma N.Ədilov barama və arı qədər qədər həşərat da deyil. Ola bilər ki, arı olsun, o da eşşək arısından...Ondan eyni zamanda yaxşıca pıspısa, ağcaqanad, milçək çıxar (özü də göyündən!). Yəni qısacası desək, PARAZİTDİR!

### Natiq Ədilov paraziti tumanını ona görə başına çəkib, hay-haray salırmış ki...

İndi qardaş, bu parazit gedib çıxıb Fransaya. Özü də uzun illər Ə.Kərimlinin yanında üz-gözünü cırandan, indinin cavanları demişkən, özünü lezvalıyandan sonra. Yəni Natiq Ədilov paraziti tumanını ona görə başına çəkib, hay-haray salırmış ki, onun Avropaya yolu açılsın. Budur, o, artıq Fransadadır! İndi özəyi Fransada yeləşən erməni lobbisi həmin bu Natiq parazitini evlə, pulla, maşınla, hətta lazım olarsa, işlə də təmin edəcək ki, sən uzun illər düşmənimiz və düşmənin Azərbaycan dövlətinə, dövlətçilik maraqlarına qarşı çıxış etmisən. Hətta lazım olarsa, qeyri-sünnətli olması üçün müvafiq yerinə əlavə dəri parçası tikib, Qriqorian kilsəsinin xaç suyuna da çəkəcəklər. Axı Natiq parazitinin millətçi - şovinist erməni parazitindən heç bir fərqi-zadı yoxdur!

### Bəlkə elə deyil?

Hələ bu harasıdır ki?! Natiq Ədilovun ona dəfələrlə xəyanət edən həkim "həyat yoldaşı" qalsın bir yana, ona qaragöz-qaraqaş bir erməni haxçisi də sırıyacaqlar. Nə qədər olmasa, Natiq paraziti azərbaycanlıdan daha çox erməniyə bir deyil, beş-altı köynək yaxındır. O, bunu məhz çalsaqqalı, yaxud da ağçaqqalı Əli Kərimlidən öyrənib. Nə isə...

İndi, həmin bu Natiq paraziti istəyinə çatdı. Getdi Avropaya, adını da qoydu "siyasi mühacirlik". Yalansa başına Cəmil Həsənli, yox-yox, Fuad Qəhrəmanlı boyda qoca bir daş düşsün ki, sən özünü "siyasi mühacir" hesab edirsən. Bəlkə elə deyil əyə, a parazit?!

***P.S. Öz aramızdır, ölkəmizdə parazitin biri də azaldı...***

# "Fredoom House" kimin hüquqlarını qoruyur?

***"Freddom House"un adı çoxlarına bir neçə ildir ki, məlumdur. Lakin hələ İkinci Dünya müharibəsi ərəfəsində bu təşkilat müharibə edən dövlətlərə silah satışında əsas rol oynayırdı. Belə ki, 1941-ci ildə Vaşinqtonda yaradılan qurumun fəaliyyəti bir neçə il gizli saxlanılıb, daha sonra isə, müharibədə məğlub olan tərəflərlə bütün silah alış-verişi müqavilələri bu təşkilat hazırlayırdı. Məhz 1944-cü ildə ABŞ-ın müharibəyə girməsini təmin edən də "Fredoom House" idi. Daha dəqiq desək, "məşğul olan dövlətlərə yardım" adı altında özünə silah bazarı açmaq üçün müharibəyə girən ABŞ-ın bu istiqamətdə bütün danışıqlarını bu qurum həyata keçirirdi. Bu, heç də təsadüfi taktika deyildi. Elə Birinci Dünya müharibəsində də 1917-ci ilin aprelində daxil olan ABŞ-ın "silah satışını" təmin edən "Fredoom House" tipli bir neçə şəbəkəsi var idi.***




Bu qurumlar Çinə elan olunan "Açıq qapı" doktrinasının, "Dollar" diplomatiyasının ən uğurlu təəssübkeşləri idilər. Şübhəsiz ki, zaman keçdikcə dünyada baş verən siyasi-iqtisadi proseslərə uyğun olaraq ABŞ-ın nəzarətində olan "Fredoom House" kimi bir neçə anarxist qurumlar öz fəaliyyətlərini "korrektə" edərək" "insan hüquqlarının müdafiəçisi" rolunda çıxış etməyə başladılar. Biz bunun "Human Rights Watch" təşkilatının simasında daha açıq şəkildə şahidi olmuşuq. Bu gün nələr baş verir? "Fredoom House" təşkilatının vasitəsilə ABŞ xüsusi xidmət orqanları bu gün də öz çirkin niyyətlərini həyata keçirirlər, lakin daha fərqli formada. Məsələn, təhsil-tədris müəssisələrinin, neft şirkətlərinin, universitetlərin, mediya qurumların, müxtəlif ofislərin, iqtisadi proqramların, diplomatik korpusların əli ilə öz missiyasını yerinə yetirir. Həmçinin müxtəlif ölkələrdən ABŞ-a təhsil almağa gedən gənclərin böyük bir hissəsi öz doğma vətənlərinə döndükdən sonra tamamilə fərqli düşüncə tərzinə malik olub, öz ölkəsinin milli maraqlarının əleyhinə fəaliyyət göstərirlər.

Son ildə sözün həqiqi mənasında əsl inkişaf yolunu tutan, müstəqil siyasət həyata keçirən dövlətlərə qarşı həyata keçirilən qara piyarda, qarayaxma kampaniyasında "Fredoom House"un rolu həddsiz dərəcədə böyükdür. Niyə də olmasın? Bu qurum öz profili üzrə fəaliyyət göstərir. Bu gün bir sıra Avropa mətbuatında Azərbaycan haqqında gedən qərəzli yazılar da məhz bu təşkilatın mətbəxində hazırlanır. Bu il Azərbaycanda iki mühüm hadisə olacaq: Olimpiya oyunları və parlament seçkiləri. Məhz belə bir ərəfədə, ölkəmiz üçün həssas bir dövrdə "insan hüquqları" adı altında ölkəmizə qarşı hücuma keçən təşkilatların mövqeyi anlaşılandır. Bu, onların xislətidir. Biz bunun ilk dəfə şahidi deyilik ki. Baxın, dünyanın ən böyük terrorçularını elə ABŞ yetişdirir. ABŞ İŞİD-i necə yaratdı? İŞİD-in gələcək taleyi necə olacaq? 2015-ci ildə dünyanı ABŞ-ın diqtəsi ilə hansı təhlükələr gözləyir? Bütün bu sualların cavabı var. Bu haqda növbəti sayımızda...

***Samir***

# Xocalı soyqırımı dünya ictimaiyyətinin diqqətində

## *Niderland telekanalında Azərbaycan haqqında hazırlanan verilişdə 23 il əvvəl törədilmiş Xocalı faciəsindən bəhs olunub*

***Təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı iki yüz ilə yaxın bir dövrdə aparılan soyqırımı siyasətinin məqsədi azərbaycanlıları tarixi torpaqlarından didərgin salmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq olub. Bu mənfur ideyanı reallaşdırmaq istiqamətində ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçirilib. Azərbaycanlılar tədricən doğma torpaqlarından qovulub və həmin ərazilərdə başqa ölkələrdən köçürülmüş ermənilər məskunlaşdırılıb.***

Ötən əsrin ən böyük faciələrindən biri kimi tariximizdə iz salan Xocalı soyqırımı XX yüzillikdə insanlığa qarşı törədilən ən amansız faciələrdən sayılır. Bu gün Azərbaycan yaşadığı faciə dünyaya nümayiş olunur. Dünya mətbuatı, televiziyaları Xocalı həqiqətləri ilə bağlı olan olayları diqqətdən kənarda saxlamır. O dəhşətli faciə ilə bağlı dünya mətbuatının səhifələrində əksini tapır. Bildiyimiz kimi, AFR bundestaqı nəzdindəki "Alman Parlament Cəmiyyəti" tərəfindən keçirilən Xocalı soyqırımının 23-cü ildönümünə həsr olunmuş simpozium geniş videoreportaj kimi Berlinin "TV Berlin" telekanalının efirində yayımlanıb. Videoreportaj telekanalın veb saytında da yerləşdirilib. İki hissədən ibarət videoreportajın surəti "Youtube" portalına da yerləşdirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən "Səs" qəzetinə verilən məlumata görə, Niderland Krallığının NPO 2 televiziya kanalında da Xocalı soyqırımına həsr olunmuş proqram yayımlanıb. Kanalın müsəlmanlar üçün təsis edilən yayım qurumunda efirə gedən 10 dəqiqəlik proqramda Benilüks Azərbaycan Konqresinin (BAK) Xocalı soyqırımı ilə bağlı anım tədbirlərinə geniş yer verilib.

Telekanalın əməkdaşı Burhanettin Çarlakın hazırladığı proqramda Ermənistanın Azərbaycana təcavüzü, 20 faiz torpağımızı işğal altında saxlaması, bir milyondan artıq insanın öz torpağından didərgin düşməsi, Ermənistan silahlı qüvvələrinin Xocalı şəhərində azərbaycanlı əhaliyə qarşı törətdiyi soyqırımı, insanların ağlasığmaz işgəncələrlə öldürülməsi azərbaycanlı və türk müsahiblərin dili ilə tamaşaçıların diqqətinə çatdırılıb.




Verilişdə Azərbaycan və Türkiyə türkləri ilə yanaşı, hollandların çıxışlarına da yer ayrılıb. Holland jurnalist Jack Kroes öz müsahibəsində 23 il əvvəl Xocalıda törədilmiş faciəni heç bir bəraəti olmayan cinayət adlandırıb. Avropa Şurası, Avropa Parlamenti, Beynəlxalq Ədalət Məhkəməsi kimi beynəlxalq qurumları Xocalı faciəsinə ədalətli qiymət verməyə, günahkarların cəzalandırılması üçün konkret addımlar atmağa çağıran J.Kroes bu istiqamətdə Azərbaycanın səylərini daha da gücləndirməsinin vacib olduğunu bildirib.

Niderland televiziyasında yayımlanan proqramda bu ölkədə yaşayan azərbaycanlıların yerli cəmiyyətə inteqrasiyası, Benilüks Azərbaycanlıları Konqresi və təşkilatın nəzdində fəaliyyət göstərən ana dili məktəblərinin fəaliyyətinə də toxunulub.

Göründüyü kimi, bu gün dünya ictimaiyyətinə Azərbaycan həqiqətləri geniş şəkildə çatdırılır. Dünya insanı Qarabağda, Xocalıda baş verən olayları layiqli və düzgün qiymətləndirir. Bu gün Xocalı soyqırımının tanınması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə də yayılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində davamlı olaraq addımlar atılır. Aparılan bu uğurlu siyasətin nəticəsidir ki, dünya ölkələrinin bir qismi tərəfindən Xocalı soyqırımının rəsmən tanınması barədə qərar qəbul edilib. Faciəni qətliam kimi tanıyan ABŞ-ın Texas, Nyu-Cersi, Corciya, Men, Nyu-Meksiko, Arkanzas, Missisipi, Oklahoma və başqa ştatları qətnamə qəbul ediblər.

Təbii ki, belə bir faciəyə siyasi-hüquqi qiymət vermək istəməyən dövlətlər də var. Bu gün Avropa dillərində çap olunan kitablar, çəkilən filmlər və s. Xocalı həqiqətləri ilə dünya ictimaiyyətini baş-başa qoyur. Beynəlxalq qurumlar qarşısında fikirlərimizi qətiyyətlə söyləyə bilirik. Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması və bu istiqamətdə gerçəkləşən layihələrin artıq coğrafi məkanı ilbəil genişlənir. Bu, Azərbaycanın dünyada formalaşan imicinin məntiqidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İçərilərini yeyən paxıllıq qurdları

## Və ya I Avropa Oyunları Azərbaycanı istəməyənlərə nə verəcək?

***Azərbaycanda baş tutacaq birinci Avropa Oyunlarına sayılacaq həftələr qalmaqdadır. Yaxın zamanlarda Avropanın idman nəbzi Bakıda döyünəcək. Söz yox ki, bu kimi möhtəşəm idman hadisəsinin ölkəmizdə keçirilməsi bu dövləti sevən hər bir kəsdə qürur və fərəh hissi oyatmaqla yanaşı, həm də qələbə əzmini yaradır. Çünki bütün Avropa ölkələrini üstələyərək, yarışların məhz Azərbaycanda keçirilməsi qərarı bir qələbə, bir zəfər faktorudur. Azərbaycan bununla bir daha sübut etdi ki, ölkəmizdə mövcud olan mühit hətta daha böyük beynəlxalq miqyaslı tədbirlərin keçirməsinə hazır və qadirdir.***

### İctimai rəy bu kimi addımlardan hiddətlənir

Lakin bütün bunlara rəğmən, Azərbaycanda müəyyən siyasi-iqtisadi maraqları olan bəzi dairələr, xüsusilə erməni lobbisi və həmin lobbinin dəyirmanına su tökən qaragüruhçu, radikal müxalifət ünsürləri hələ də öz köhnə havalarında qalmaqdadırlar. Belə ki, onlar siyasi korrupsiyaya bulaşmış bir sıra beynəlxalq təşkilatlarla, o cümlədən, Qərbdə fəaliyyət göstərən bəzi media qurumları ilə səs-səsə verərək, guya Azərbaycanda "siyasi məhbusların" olması, "insan haqlarının" pozulması, "söz və ifadə azadlığının olmaması" kontekstində böhtanlı çıxışlar edir, sonra da həmin böhtanlarını öz səhifələrində ictimailəşdirirlər. Düzdür, həmin ünsürlərin boş bar-bağırtıları burunlarından uzağa getməsə də, sağlam düşüncəli ictimai rəy istər-istəməz Azərbaycana qarşı çıxan bu kimi tərəflərin həmin addımlarından hiddətlənir. Necə deyərlər, milçək iyrənc deyil, könül bulandırır.

### Həmin motiv Avropa Oyunlarına yönləndirilib

Bu arada AXCP-nin sədri Əli Kərimlinin bilavasitə nəzarəti ilə işıq üzü görən "Azadlıq" qəzeti bu cür məsələlərdə hər zaman canfəşanlığı ilə seçilir. Təkcə bir neçə il öncə, Bakıda keçirilən və xüsusi özəlliyi ilə seçilən "Eurovision" Mahnı Müsabiqəsi ərəfəsində Əli Kərimliyə yaxınlığı ilə seçilən siyasiləşmiş QHT-lərin, Leyla Yunusun təşkilatının, o cümlədən, bəzi Qərb media qurumlarının hansı oyunlardan çıxmalarını xatırlasaq, nə demək istədiyimizi dəyərli oxucularımız anlayar.

Hazırda isə həmin motiv Avropa Oyunlarına yönləndirilib. Məsələ ondadır ki, qərəzli beynəlxalq təşkilatların yanında I Avropa Oyunlarına qarşı çıxış edən bəzi olimpiya komitələri də var ki, onların məqsədi idman deyil, siyasi maraqların güdülməsinə gedib dayanır. Daha dəqiq desək, Hollandiya, Almaniya kimi ölkələrin olimpiya komitələrinin rəsmiləri yersiz və qərəzli şəkildə Azərbaycanda "repressiyaların olmasını" əsas gətirərək, məhz Əli Kərimlidən fərqlənməyib, könül bulandırmaqla məşğuldurlar.

Məsələn, Hollandiya Olimpiya Komitəsi isə Azərbaycandakı vəziyyətin (?!-R.N.) araşdırılması üçün Avropa Olimpiya Komitəsinə məktub ünvanlayıb. Bu barədə Almaniyanın "Frankfurter Allgemeine Zeitung" qəzetində qərəz və böhtanlarla dolu olan yazı dərc edən komitə rəsmisi əslində öz ölkəsində baş verən irqçilik və ksenofobiya faktlarını unudub. Əgər unudubsa, ona bir neçə xatırlatma edə bilərik. Məsələn, elə də uzağa getməyərək, 2010-cu ildə Hollandiyanın irqçi "Azadlıq" partiyasının dəstəyi ilə formalaşdırılan koalisiya hökumətinin işə başlamasını göstərə bilərik. Məhz həmin dövrdə, müsəlmanlara, eləcə də digər dinlərə mənsub olan mühacirlər ciddi narahatçılıqlar keçirməyə başladılar. Daha dəqiqi isə Hollandiyada irqçi "Azadlıq" partiyasının dəstəyi ilə formalaşdırılan koalisiya hökuməti ölkədəki mühacirləri təşvişə salmışdı. Təşvişə düşməyə isə səbəblər var idi. Proqramını mühacirət və İslam əleyhdarlığı üzərində qurmaqda ittiham olunan koalisiya hökuməti artıq bir müddət sonra öz çirkin əməllərini reallaşdırmağa başladı. Bunu isə biz deyil, məhz Hollandiya Din Fondu təsdiq etmişdi. Adıçəkilən irqçi siyasi təşkilat koalisiyaya qoşular-qoşulmaz bu ölkədə məscidlərə, sinaqoqlara qarşı silahlı hücumların sayının artmağa başladı. Yəni Hollandiyada buna qədər də həmin hadisələr baş verirdi. Hətta Hollandiyanın ana müxalifət partiyası həmin dövrlərdə Hollandiyanın irqçi hökumətindən bu cür hücumlara zəmin yaradacaq siyasət yürütməməsini tələb etmişdi.




Ancaq bu da son deyildi. Məsələn, həmin zamanlarda Hollandiyada səhiyyə nazirinin köməkçisi seçilən Marlies Van Zantenin həm Hollandiya, həm də İsveç vətəndaşı olması və irqçi lider Gert Vildersin buna şərait yaratması vəziyyətin daha da gərginləşməsinə səbəb olmuşdu. Hansı ki, Hollandiya bütün dünyada ən azad ölkələrdən biri kimi tanınırdı. Lakin bu ölkədə daha bir neçə il öncə baş vermiş iki siyasi cinayət ölkənin onurğasına zərbə vurdu. 2002-ci ildə heyvan haqları müdafiəçisi tərəfindən öldürülən Pim Fortuyn ilə 2004-cü ildə Mərakeş əsilli hollandiyalı tərəfindən qətlə yetirilən Teo Van Qoq cinayətləri, bir anda dünyanın irqçi ölkələrindən birini qarşımıza çıxardı. İki cinayət bir ölkəni dəyişdirmişdi. Fortuynun bundan dərhal sonra yazdığı "Fitnə" kitabıyla məşhurlaşan Girt Vilders, həmin ana qədər islama ən ağır təhqirlərə yol verən avropalı siyasətçi oldu. Türkiyənin Aİ-yə üzvlük məsələsində partiyası ilə ortaq fikrə gələ bilmədiyinə görə 2004-cü ildə Liberal partiyadan çıxan Vilders, "Azadlıq" partiyasını yaratdı. 2006-cı ildə iştirak etdiyi ilk seçkilərdə 150 nəfərlik Hollandiya məclisində 9 yer əldə edən Vilders, həm öz ölkəsində həm də Avropada siyasət yürüdən sağ və irqçi partiyalara böyük təsir etməyə başladı. Müsəlmanları, eləcə də digər irqi mənsubların təhqir etməyin Avropa siyasətinin mühüm cəhətlərindən birinə çevrilməsinə Vilders səbəb oldu. "İslama zidd münasibətin dünyəvi elçisi" olan Vilders, müsəlmanları təhqir etmək üçün ABŞ və Avropanın müxtəlif irqçi partiyalarından aldığı dəvətləri qiymətləndirərək "mesajını" dünyəviləşdirməyə çalışırdı. Məgər bu faktların özü deməyə əsas vermirmi ki, əslində, Hollandiyanın Olimpiya Komitəsinin rəsmiləri ölkəmiz haqqında qeyri-ciddi ittihamlar səsləndirərkən, dönüb öz yaxın tarixlərinə baxsaydılar, daha yaxşı olardı?!

### Məgər bütün bunlar Qərbin iç üzünü kifayət qədər ifşa etmirmi?

Eləcə də Almaniyanın Olimpiya Konfederasiyası bəzi qərəzli beynəlxalq təşkilatların Azərbaycan haqqında yaydığı "hesabatlara" söykənərək, sərsəm bəyanatlar səsləndirməsi heç bir demokratik və sivil çərçivəyə sığmır. Əgər belədirsə, onda Almaniyanın bu kimi siyasi fərdlərinə də bəzi xatırlatmalar edə bilərik. Məsələn, əvvəl "Mən türklərin də baş naziriyəm" çıxışı ilə uyğun siyasətlərin memarı kimi mənsub olduğu "SDU"-nu (Sosial Demokratlar) şəhərli və müasir partiyaya çevirməyə çalışan Angela Merkel birdən-birə "Almaniyada çoxmədəniyyətliliyə yer yoxdur" deməyə başladı. Sonradan "Sihofer" bir qədər sərt şəkildə Almaniyanın ayrı-ayrı mədəniyyətlərdən mühacir qəbul etməyəcəyini bildirdi. "Sihofer" ayrı-ayrı mədəniyyətlər dedikdə, şübhəsiz ki, türk və ərəb mədəniyyətlərini nəzərdə tuturdu. Digər tərəfdən, Almaniyada islam və türkçülüyə qarşı ifadələrin qəbul edilməsində mətbuatın ayrı yeri olduğunu da danmaq olmaz. Belə ki, "Springer" qrupuna bağlı olan "Bild" və "Die Velt" ilə muhafazakar "Frankfurter Allgemeine Zeitung", türklər və islama qarşı münasibətin asanlıqla yer aldığı nəşrlərdir. Buna əlavə olaraq həftəlik "Fokus" jurnalı ilə xüsusən Almaniyanın birinci kanalı ARD-də yayımlanan proqramlar cəmiyyətdəki islama zidd münasibətin daha rahat ifadə edilməsinə şərait yaradır. Mərkəzi mətbuat ilə "SDU" və "SPD" kimi kütləvi partiyalar hələlik cəmiyyətin hər təbəqəsində az və ya çox tanınan islama zidd münasibəti səhifələrində əks etdirərək və ya siyasi ifadəyə çevirərək yeni bir partiyanın uğurunun qarşısını almaq istəyirlər.

Məgər bütün bunlar Qərbin iç üzünü kifayət qədər ifşa etmirmi? Nəyə görə, Azərbaycanı hədəfə alan və erməni lobbisinin pul-parası ilə fəaliyyət göstərən bir sıra beynəlxalq təşkilatlar, o cümlədən, həmin təşkilatlara yalmanaraq, artıq-urtuq sür-sümüklərlə qidalanıb, öz ölkəsinə qarşı çıxan radikal müxalifət, xüsusilə, AXCP sədri Əli Kərimli və onun "Azadlıq" qəzeti dövlətçiliyimizə qarşı bu qədər qənim kəsiliblər? Bu sualın cavabı isə birdir - "qurdluluq". Belələrini qıcıqlandıran, içəridən yeyən məhz paxıllıq, qısqanclıq və digər bu kimi sinifləri aid olan qurdlar yeyir. Nəticədə daha da azğınlaşan həmin tərəflər məhz daxillərində olan qurdlar vasitəsilə biritb-yükənməyə məhkum olacaqlar. Artıq bunun işartıları da görünməkdədir. Bakıda I Avropa Oyunları öz möhtəşəmliyi və tarixi ilə dünyaya öz sözünü dedikdən sonra biz hamımız həmin ünsürlərin necə yeyilib-tükənəcəklərinin şahidlərinə çevriləcəyik.

**Rövşən NURƏDDİNOĞLU**

---



## 31 MART reallığı "24 aprel" stereotipini - ağ yalanını əzməlidir!

**RƏFİQƏ**

***31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ... Bu nə qədər qəribə səslənsə də əlamətdar tarix, bu rəqəmlər hər ilin bu günü erməni vəhşiliyini, erməni zülmünü və erməni qaniçənliyini bir daha üzə çıxarır və xatırladır ki, ey azərbaycanlılar, ulu babaları, nənələri qanında boğulmuş millət, unutma ki, unudulmayasan!***

### Bu reallığı 31 mart üzərinə də kökləməyin zamanı çatıb

Dünya Xocalı kimi bir faciəni soyqırımı kimi tanımaqdadır. Dünyanın əksər ölkələri, əksər parlamentləri faktlar, sübutlar, sənədlər, canlı şahidlər hesabına Xocalını soyqırımı kimi tanımağa məcbur oldu və bu istiqamətdə dövlət qətiyyətli iş aparmağı bacardı. Məhz bu qətiyyətin sayəsində, Xocalı dedikdə SOYQIRIMI sözü öz məntiqi yerini tutmağa başlayıb.

Həmçinin, bu reallığı 31 mart tarixinə kökləməyin zamanı çatıb. Hansı ki, "24 aprel" adlı erməni stereotipi yalanlar üzərində bəzi dövlətlər tərəfindən tanınır. Təəssüf ki, olmayan bir tarixi, olmayan bir hadisəni böyük türk dünyasının adına yazmaq, yazdırmaq riyakar, işğalçı ermənilərə müyəssər olub. Ancaq bu reallıq da mövcuddur ki, Azərbaycan Xocalını, 31 mart hadisələrini dünyaya tanıtdıqca, "24 aprel" stereotipini, ağ yalanını əzə bilər. Çünki həqiqət hər zaman yalan üzərində qələbə çalıb.

Söz yox ki, "24 aprel" yalanını əzmək üçün Xocalı və 31 mart soyqırımlarını tanıtmaqla yanaşı, Qarabağdan da keçməlidir bu millət! Bu millət tarixi torpaqlarını azad etməklə öz hüququnu müdafiə etmək əzmindədir. Bu əzmi isə xalqa dövlət verib, dövlət yaradıb! Xalq öz dövlətinə, xalqına inanır, Ali Baş Komandanın əmrini gözləyir! Qarabağda zəfər yürüşündən keçmək üçün, Xocalının, 31 martın dünyaya birmənalı olaraq tanıdılması üçün. Çünki bu, həm də bir haqq işidir. Haqqın tapdandığını görüb, onu müdafiə etməmək xəyanətdir, deyib ulu babalarımız.

Bu gün Azərbaycan dövləti məhz bu haqq yolunda qürurla, inamla, vüsətlə, şərəflə və ləyaqətlə addımlayır və əlbəttə ki, bu addımların altında "24 aprel" adlı utopiya əziləcək. Azərbaycan dövləti, ölkə rəhbərliyi məhz hücum siyasəti nəticəsində qələbələrini qazanır, bundan sonra da qazanacaq, öz doğma xalqı, milləti ilə bir yerdə həmişə olacaq!

# Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə siyasəti

***Dünən AMEA-nın Elmi İnnovasiyalar Mərkəzində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı tədbir keçirildi.***



Əvvəlcə soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Tədbiri giriş sözü ilə açan mərkəzin direktoru, hüquq üzrə fəlsəfə doktoru Azər Namazov Azərbaycan xalqına qarşı ermənilər tərəfindən 1918-ci ilin martında törədilmiş soyqırımının tariximizin faciəli səhifələrindən biri olduğunu söylədi. O, soyqırımı siyasətinin xronologiyasından, bu siyasətin tərkib hissəsi kimi günahsız insanların xüsusi amansızlıqla qətlə yetirilməsindən və azərbaycanlıların öz yurdlarından didərgin salınmalarından söhbət açdı. A.Namazov 31 mart soyqırımına hüquqi-siyasi qiymətin Ümummilli Lider Heydər Əliyev tərəfindən verildiyini qeyd etdi. Ulu Öndərin 1998-ci ildə imzaladığı Fərmanla 31 mart rəsmi olaraq "Azərbaycanlıların Soyqırımı Günü" kimi qəbul edildi.

Tədbirdə çıxış edən iqtisad elmlər doktoru, professor Tərbiz Əliyev ermənilərin azərbaycanlılara qarşı müxtəlif dövrlərdə törətdikləri soyqırımı aktları barədə məlumat verdi. Qeyd etdi ki, 1918-ci ilin martında erməni millətçilərinin Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədilə həyata keçirdikləri soyqırımı zamanı minlərlə dinc əhali məhv edilmiş, görünməmiş qanlı cinayətlər törədilmişdir: "Bu soyqırımı 1918-ci ilin 30 mart - 2 aprel tarixlərində Bakıda, Şamaxıda, Qubada, Salyanda, Zəngəzurda, Qarabağda, Naxçıvanda baş vermiş, 700 minə yaxın, Bakı və Bakıətrafı kəndlərdə törədilən bu soyqırımda 30 min müsəlman qətlə yetirilmişdir".

T.Əliyev Qubada erməni cəlladları tərəfindən azərbaycanlıların qırğınının dəhşətlərini əks etdirən kütləvi məzarlıqdan da söz açdı. O, soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə həmin ərazidə "Soyqırımı memorial kompleksi"nin yaradılması haqqında ölkə Prezidenti İlham Əliyevin 2009-cu il 30 dekabr tarixli Sərəncamının əhəmiyyətini xüsusi vurğuladı.

***NƏZAKƏT***

# TANAP hər kəsin cəlb olunduğu və tamamlanması üçün səy göstərəcəyi layihə olmalıdır



ABŞ Dövlət Departamentinin enerji ehtiyatları bürosunun xüsusi nümayəndəsi Amos Hoxstayn hesab edir ki, TANAP həm Türkiyə, həm də Avropa üçün ən yaxşı layihədir.

Amos Hoxstayn Türkiyənin "Hürriyyət" qəzetinə müsahibəsində deyib ki, ölkələrin tək bir enerji təchizatçısı olan ölkədən həddindən çox asılı olması heç bir zaman yaxşı hal hesab olunmur. Xüsusilə də, əgər təchizatçı ölkənin enerji siyasətindən bir vasitə olaraq istifadə etməyə meyli varsa. Bu vəziyyətin qarşısını almaq üçün həm enerji təchizatını təmin etmək, həm də enerjinin nəql edildiyi marşrutların diversifikasiyası vacibdir. Trans-Anadolu qaz boru kəməri - TANAP bu iki əsas meyarı özündə birləşdirən tək layihədir. Artıq təbii qaz, həm yeni bir təchizatçı tərəfindən, həm də yeni bir yolla gələcək. TANAP enerji qaynaqlarının diversifikasiyası üçün yaxşı bir nümunədir. Amos Hoxstayn bildirib ki, TANAP ilə Azərbaycan təbii qazı ilk dəfə olaraq Avropa bazarına çatdırılacaq. Layihənin keçdiyi marşrut da çox əhəmiyyətlidir. Təbii qaz Ukrayna ya da Rusiyadan yox məhz Türkiyə ərazisindən keçir. Türkiyədən keçərək İtaliyaya çatdıqdan sonra Yunanıstandan Bolqarıstana qədər uzanacaq yeni bir boru xəttini inşa etmək imkanı yaradacaq. Yeni xətt Bolqarıstandan da Serbiya, Rumıniya və Macarıstana bağlanacaq.

Amos Hoxstayn qeyd edib ki, TANAP təxminən 10 ildir ki müzakirə olunan və Türkiyə, Gürcüstan və Azərbaycan hökumətlərinin böyük öhdəlik götürdükləri bir layihədir. Bu səbəbdən də TANAP hər kəsin cəlb olunduğu və tamamlanması üçün səy göstərəcəyi layihə olmalıdır. Çünki həm Türkiyə, həm də Avropa üçün ən yaxşısı budur.

# YAP Ağsu rayon təşkilatı gənclər birliyi 31 Mart Soyqırımı Gününü qeyd edib





***Dünən YAP Ağsu rayon təşkilatı gənclər birliyinin təşəbbüsü və təşkilatçılığı ilə 31 Mart Azərbaycanlıların Soyqırımının 97-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Dövlət himni səsləndikdən sonra soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Ağsu şəhər 1 saylı tam orta məktəbinin akt zalında keçirilən tədbirdə YAP Ağsu rayon təşkilatı gənclər birliyinin sədri Elnur Fərzəlizadə Azərbaycanın çağdaş tarixində unudulması mümkün olmayan, bütövlükə xalqın yaddaşında dərin iz buraxan hadisələrdən birinin də 31 mart azərbaycanlıların soyqırımının olduğunu diqqətə çatdırıb. Elnur Fərzəlizadə isə çıxışında vurğulayıb ki, bu gün erməni millətçilərinin xalqımıza qarşı törətdiyi qanlı cinayətlərdən biri olan 1918-ci ilin mart soyqırımından 97 il ötür: "Tarix sübut edir ki, XIX əsrdən başlayaraq ermənilər Azərbaycan və Türkiyə ərazisində işğalçılıq niyyətlərini həyata keçirmək və tarixi torpaqlarımız hesabına "Böyük Ermənistan" ideyasını reallışdırmaq üçün ardıcıl olaraq dəhşətli soyqırımı cinayətləri törətmişlər. Təkcə 1918-ci ilin mart qırğınları zamanı ermənilər tərəfindən Bakıda və bölgələrdə on minlərlə azərbaycanlı amansızcasına qətlə yetirilmiş, qədim tarixi abidələrimiz məhv edilmişdir. 1991-ci ildə Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra da bu siyasət davam etmiş, yalnız Ulu Öndər Heydər Əliyevin qətiyyəti sayəsində soyqırımı hadisələri barədə həqiqətlər üzə çıxdı, bu hadisələrə hüquqi və siyasi qiymət verildi. 1998-ci ildən başlayaraq 31 Mart Azərbaycanlıların Soyqırımı Günü kimi dövlət səviyyəsində qeyd olunmağa başladı. Tariximizin bu illərinə Ulu Öndərimiz tərəfindən verilən siyasi qiymət, bu istiqamətdə həyata keçirilən tədbirlər bu gün Prezidentimiz İlham Əliyev tərəfindən ardıcıl və məqsədyönlü şəkildə davam etdirilir".

YAP Ağsu rayon təşkilatı gənclər birliyinin idarə heyətinin üzvü Altun Şeydayev, Ağsu şəhər 1 saylı tam orta məktəbin müəllimi Sənan Nemətovun məruzələrində XIX və XX əsrlərdə ermənilərin Azərbaycan xalqına qarşı əsassız torpaq iddialarından, "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanaraq millətimizə qarşı etnik təmizlənmə siyasəti aparmaqla kütləvi qətllər və soyqırımı aktlarının həyata keçirmələrindən söz açıblar. Çıxış edənlər 1918-ci ilin martında ermənilərin Ağsu rayonunun bəzi kəndlərində də həyata keçirdikləri qətliamlardan danışıblar. Anım mərasimində, həmçinin bəşəriyyətə, insanlığa qarşı yönələn erməni vəhşiliklərinin cəzasız qalmayacaqlarını bildiriblər.

Anım mərasimində 31 Mart Azərbaycanlıların Soyqırımına həsr olunmuş sənədli film nümayiş olunub. Həmçinin, tədbir rayon məktəblilərinin hazırladıqları kompozisiya ilə davan etdirilib.

***Z.HÜSEYNOVA***

# Elman Məmmədov: "Ermənistanın çıxış yolu Azərbaycan və Türkiyə ilə normal qonşuluq münasibətləri yaratmaqdır"



"Ermənistan Dağlıq Qarabağı və ətraf yeddi rayonu azad etməli və Türkiyəyə qarşı qondarma "soyqırım" iddialarından əl çəkməlidir. Bunlar baş verərsə, ermənilər normal vəziyyətdə yaşaya bilərlər. Başqa çıxış yolları yoxdur. Yəni ermənilərin içərisində də obyektiv, ağıllı düşünənlər, baş verən prosesləri düzgün analiz etməyə qadir olanlar var". Bu fikirləri Milli Məclisin deputatı Elman Məmmədov deyib.

E.Məmmədov bildirib ki, həmin ermənilər bugünkü vəziyyəti analiz edərək görürlər ki, Ermənistanın normal bir dövlət kimi mövcud olması, yaşaması üçün yeganə çıxış yolu qonşuları, xüsusilə də Azərbaycan və Türkiyə ilə normal qonşuluq münasibətləri yaratmaqdır. Onun sözlərinə görə, Ermənistanın düşdüyü acınacaqlı vəziyyətdən yeganə çıxış yolu budur. "Bu gün Ermənistan səfalət, dilənçi vəziyyətində yaşamağa düçar olub. Bu vəziyyətdən çıxış yolu isə işğal olunmuş torpaqlarımızı azad etmək, Azərbaycan və Türkiyə ilə normal qonşuluq yaratmaqdan keçir. Əlinə ağ bayraq götürüb Azərbaycan tərəfə keçən gənc erməni əsgəri hərəkəti ilə bütün ağlı yerində olan ermənilərə müraciət etdi ki, ən düzgün yol budur. Yəni, siz terrorçu, işğalçı, cinayətkar köçəryanların, sarkisyanların, zori balayanların küyünə gedib özünüzü bədbəxt etməyin, düz yola qayıdın. Bu hərəkət gənc erməni əsgərinin xalqına verdiyi mesaj idi"- deyə, E. Məmmədov qeyd edib.

**"New Sity" daşınmaz əmlak şirkəti sizlərə təqdim edir**



Azərbaycanın istənilən şəhər və rayonunda yeni və köhnə tikili ev və mənzillərin, bağ evi və villaların, torpaq sahələrinin, ofis və obyektlərin alqı - satqısını və kirayəsini, o cümlədən, təmir və dizayner işlərini cox səmərəli, zəmanətli təşkil edir.

Əlaqə telefonu: 537-19-88; 555-16-08
055 285-01-08

# Milli-tarixi faciələrimizin öyrənilməsi hər bir ziyalının vətəndaşlıq borcudur



***YAP İsmayıllı rayon təşkilatı 31 Mart Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş rayon ziyalılarının iştirakı ilə dəyirmi masa keçirib. Tədbiri giriş sözü ilə YAP İsmayıllı rayon təşkilatının sədri Əzizə Vahabova açaraq, soyqırımı və terrorun Ermənistanın dövlət siyasətinin əsasını təşkil etdiyini bildirib: "Etnik təmizləmə siyasətini açıq həyata keçirən, bir əsrdə günahsız azərbaycanlıların məhvi ilə nəticələnən neçə-neçə soyqırımı və qətliamlar törədən ermənilər tarixdə görünməyən vəhşiliklərin müəllifləridirlər.***

Azərbaycan xalqına qarşı ermənilərin ötən əsrlərdə apardıqları soyqırımı siyasəti nəticəsində milyonlarla soydaşımız, günahsız insanlar qətlə yetirilmiş, kəndlər, şəhərlər dağıdılmış, yandırılmışdır. Terrorun, işğalçılıq siyasətinin dövlət səviyyəsində dəstəkləndiyi Ermənistanın Azərbaycana qarşı zaman-zaman ərazi iddiaları səbəbilə baş verən qırğınların hələ də davam etdirilməsi nəticəsində minlərlə azərbaycanlı öldürülmüş, diri-diri yandırılmış, əlil olmuşdur. Ermənilərin törətdikləri soyqırımları zamanı qətlə yetirilənlərin, dağıdılan kəndlərin, tarixi abidələrin sayını hesablamaqla qurtarmaz. Təkcə 1918-ci ildə Çəmbərəkənd qəbiristanlığında dəfn olunan bakılıların sayı 15-20 min arasında olub. Erməni vəhşiliyinin nümunəsi olan Quba məzarlığı daşnak siyasətinin qanla yazılmış bir səhifəsi kimi hər kəsi dəhşətə gətirir. 1988-ci ildə Dağlıq Qarabağda başlanan və daşnak siyasətinə, ideyalarına xidmət edən hadisələr, Qərbi Azərbaycanda-Vardenisdə, Qukarkda, Qacaranda, Qafanda, Gorusda, Alaverdidə törədilmiş qanlı aksiyalar 250 mindən artıq soydaşımızın doğma yurdunu tərk etməsi ilə nəticələnib".

Ə.Vahabova bildirib ki, ermənilərin azərbaycanlılara qarşı yönəlmiş soyqırımına ilk siyasi qiyməti Ümummilli Lider Heydər Əliyev 26 mart 1998-ci ildə imzaladığı Fərmanla verərək, daha bir tarixi missiyanı yerinə yetirdi. Azərbaycanlılara qarşı törədilmiş soyqırımı barədə müasir və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdıran, dünyada bu kimi hadisələrə düzgün siyasi və hüquqi qiymət verilməsi, belə halların qarşısının alınması və bir daha təkrarlanmaması üçün proqram mahiyyətli bu sənədin əhəmiyyəti böyükdür.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə beynəlxalq səviyyədə aparılan ideoloji təbliğatın əsas prioritetləri Dağlıq Qarabağ haqqında həqiqətlərin, Xocalı soyqırımını dünya ictimaiyyətinə çatdırmaqdır. Xocalı soyqırımını ötən əsrin faciəsi adlandıran dövlətlərin sayının artması, Azərbaycanın haqq işinin müdafiəsi o deməkdir ki, münaqişənin həlli üçün balanslaşdırılmış siyasətə üstünlük verən Azərbaycan xalqının, Prezident Cənab İlham Əliyevin mövqeyi dünya ictimaiyyəti tərəfindən dəstəklənir.

Tədbirdə çıxış edən Ramiz Baloğlanov, Hafiz Kərimov, Ruhiyə Mahmudova, Leyla Babayeva, Əsgər Manafov, Pərviz Qədirov, Təranə Məmmədova və başqaları qeyd edib ki, son iki yüz ildə xalqımız dəfələrlə kütləvi qırğınlara və soyqırımlara məruz qalmışdır. Qeyd olunub ki, bu gün ermənilər xalqımızın qan yaddaşının bərpa olmasından, tarixi keçmişində ona qarşı edilən zülmlərdən xəbərdar olmasından, erməni şovinizminin, erməni terrorizminin ifşa olunmasından çox narahatdırlar. Digər tərəfdən, Azərbaycanın bir dövlət kimi qüdrətlənməsi, onun regionun aparıcı dövlətinə çevrilməsi, Ermənistanın isə bütün beynəlxalq layihələrdən təcrid olunması, insan ehtiyatlarının tükənməsi onun bir dövlət kimi perspektivsizliyindən xəbər verir. Azərbaycan isə sülhpərvər, beynəlxalq hüquq normalarına hörmət edən, separatizmin və terrorçuluğun əleyhinə ardıcıl mübarizə aparan bir dövlət imici qazanıb. Azərbaycanın haqq işi, o cümlədən ona qarşı edilən tarixi ədalətsizliyin bərpası istiqamətində atdığı addımlar tədricən beynəlxalq ictimaiyyət tərəfindən anlaşılır və qəbul edilir. Azərbaycanlılara qarşı ermənilərin törətdikləri soyqırımların tanınması da gec-tez tarixi ədalətsizliyə verilən hüquqi-siyasi qiymət kimi dünya dövlətləri tərəfindən qəbul ediləcək. Bildirilib ki, Azərbaycanın milli-tarixi faciələrinin dərindən öyrənilməsi və gənc nəslin qan yaddaşının möhkəmləndirilməsi hər bir ziyalının vətəndaşlıq borcudur.

**ZÜMRÜD**



# YAP Ağstafa rayon təşkilatının gənclər birliyi 31 Mart Soyqırımı Gününü qeyd edib

***Dünən YAP Ağstafa rayon təşkilatının gənclər birliyi 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı dəyirmi masa keçirib. Tədbir iştirakçıları ilk öncə soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.***

Tədbiri giriş sözü ilə YAP Ağstafa rayon təşkilatı gənclər birliyinin sədri Layiq Qələndərli açaraq 1918-ci ildə erməni faşistlərinin xalqımıza qarşı törətdikləri soyqırımına dair tarixi faktlara söykənən məruzə ilə çıxış edib. L.Qələndərli 1998-ci il martın 26-da Ulu Öndər Heydər Əliyevin imzaladığı Fərmana əsasən, 31 martın Azərbaycanlıların Soyqırımı Günü elan edildiyi və Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində dünya ictimaiyyətinin Azərbaycan həqiqətlərindən xəbər tutmağa başlanıldığını söyləyib: "XIX əsrin sonlarında, XX əsrin əvvəllərində, xüsusən, 1905-1907-ci illər hadisələri zamanı Bakıda və digər bölgələrdə dinc azərbaycanlılara qarşı həyata keçirilən qətliamlar ermənilərin çirkin və məkrli niyyətlərini reallaşdırmaq üçün başladıqları soyqırımı siyasətinin ilkin mərhələsi idi. 1918-ci ilin mart-aprel aylarında ermənilər Bakıda, Şamaxıda, Qubada, Muğanda və Lənkəranda 50 mindən artıq azərbaycanlını qətlə yetirmiş, evlərini talan etmiş, on minlərlə insanı yurd-yuvasından didərgin salmışlar. Təkcə Bakıda 30 mindən artıq azərbaycanlı xüsusi amansızlıqla öldürülmüş, Şamaxı qəzasının 58 kəndi yandırılmış, 8 mindən çox adam, o cümlədən 1653 qadın və 965 uşaq qətlə yetirilmiş, Quba qəzasının 122 kəndi yerlə yeksan edilmişdir. Qubada azərbaycanlılarla yanaşı, etnik azlıq təşkil edən dağ yəhudiləri də soyqırımına məruz qalmışlar. Qarabağın dağlıq hissəsində 150-dən çox, Zəngəzurda 115 azərbaycanlı kəndi vəhşicəsinə dağıdılmış, əhaliyə qəddarcasına divan tutulmuşdur. İrəvan quberniyasında 211, Qars vilayətində 92 azərbaycanlı kəndi dağıdılmış və yandırılmışdır. İrəvan azərbaycanlılarının müraciətlərində göstərilir ki, bu tarixi Azərbaycan şəhərində və onun ətrafında 1920 azərbaycanlının evi yandırılmış, 132 min azərbaycanlı məhv edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. 1919-cu və 1920-ci illərdə mart ayının 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir".

Mərasimdə, həmçinin, gənc partiya üzvlərindən Turan Hüseynov, Nofəl Tomayev, Elvin İmaməliyev, Şəfiqə İsmayılova və başqaları çıxış edərək, ermənilərin əsrlər boyu azərbaycanlılara qarşı törətdikləri soyqırımından söz açaraq bildiriblər ki, tariximizin bu illərinə Ulu Öndərimiz tərəfindən verilən siyasi qiymət, bu istiqamətdə həyata keçirilən tədbirlər bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən ardıcıl və məqsədyönlü şəkildə davam etdirilir.

**ÜLVİ**

# Bilik Fondu 31 Mart Soyqırımı tədbirini Qaradağda keçirdi

***Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanı ilə hər il bütün ölkədə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü kimi yad edilir. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu Qaradağ rayonu 320 nömrəli orta məktəbdə soyqırımı gününə həsr olunmuş tədbir keçirib. Məktəbin direktoru, Bilik Fondunun Qaradağ rayonu üzrə nümayəndəsi Namiq Cəfərov belə tədbirlərin Azərbaycan tarixinin öyrənilməsində və təbliğində böyük əhəmiyyəti olduğunu bildirib. Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***





Tədbirdə Bilik Fondunun mühazirəçisi Sosial Araşdırmalar Mərkəzinin şöbə müdiri Tahirə Allahyarova 31 mart hadisələrindən, bu qanlı tarixi faktlardan geniş söhbət açıb. Natiq xatırladıb ki, azərbaycanlıların soyqırımı XX əsrdə mərhələlərlə aparılıb, bu mənfur siyasət hələ I Pyotr dövründən başlayıb.

Bilik Fondunun əməkdaşı Ramilə Qurbanlı 31 mart soyqırımının dünya mətbuatında işıqlandırılmasından və bu tarixi dərsdən çıxaracağımız nəticələrdən danışıb.

Fondun Beynəlxalq Layihələr sektorunun əməkdaşı Rauf Həsənov çıxışında məktəbliləri daha çox maariflənməyə, Azərbaycan tarixinə qara hərflərlə yazılan faciələri hərtərəfli öyrənməyə və unutmamağa çağırıb. Tədbir məktəblilərin hazırladıqları ədəbi-bədii kompozisiya ilə davam etdirilib.

**NƏZAKƏT**



# Əbülfəs Qarayev Tovuzda vətəndaşları qəbul edib

**_Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə vətəndaşlarla görüşləri davam edir. Martın 30-da mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Tovuz şəhərində Tovuz, Ağstafa, Gədəbəy, Qazax və Şəmkir rayonlarının sakinlərini qəbul edib._**

Nazir qəbuldan öncə Tovuz rayonu ərazisindəki Göytəpə qədim yaşayış məskənində aparılan arxeoloji işlərlə tanış olub. Eramızdan əvvəl VI minilliyə aid edilən bu məkanda ölkə Prezidentinin Sərəncamı ilə arxeoloji park yaradılır. Göytəpə neolit dövrü abidəsi bölgədə mədəni turizmin inkişafı baxımdan mühüm əhəmiyyət kəsb edir. Əbülfəs Qarayev Tovuz şəhərindəki Hüseyn Bozalqanlı adına Aşıq Sənəti Muzeyində aparılan yenidənqurma işləri ilə də tanış olub, müvafiq tapşırıqlar verib. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən muzey üçün ikimərtəbəli, müasir standartlara cavab verən yeni bina inşa edilir. Nazir Tovuz rayon Tarix-Diyarşünaslıq Muzeyini, Qovlar şəhər Mədəniyyət evini, Qala kompleksini ziyarət etmişdir.

Tovuz şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən görüşdə vətəndaşların müxtəlif məsələlərlə bağlı təklif, xahiş və şikayətləri dinlənilib. Nazirliyin məsul işçilərinin də iştirak etdikləri qəbulda səslənən müraciətlər əsasən yerlərdə mədəniyyət müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, ixtisaslı kadrlarla təmin olunması, tarix-mədəniyyət abidələrinin mühafizəsi, təmir-bərpası, kitabxana şəbəkəsinin təkmilləşdirilməsi, turizmin inkişaf etdirilməsi və s. məsələlərlə bağlı olub. Həmçinin işlə təminat və digər sosial məsələlərlə bağlı müraciətlər olub. Görüşdə hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib, problemlərin həlli ilə bağlı müvafiq tədbirlərin görülməsi üçün tapşırıqlar verilib.



Nazir Əbülfəs Qarayev jurnalistlərə müsahibəsində dövlət başçısının tapşırığı ilə keçirilən bu görüşlərin əhəmiyyətini vurğulayıb. Nazir vətəndaşların təşəbbüskarlığını, mədəniyyət və turizm sahələrində problemlərə diqqət yetirməsini təqdirlə qarşıladığını deyib.

Turizmin inkişafı və tarix-mədəniyyət məkanlarının turizm marşrutlarına daxil edilməsi barədə müraciətlərə toxunan Əbülfəs Qarayev bu məsələlərə konseptual şəkildə baxıldığını və regionun turizm baxımından geniş potensialı olduğunu vurğulayıb. Bildirilib ki, tarix-memarlıq abidələri və qədim yaşayış məskənlərinin müvafiq turizm marşrutları ilə əhatə olunması üçün əlavə tədbirlər görüləcək. Bölgədə aşıq sənətinin də zəngin irsi olduğunu qeyd edən nazir bu xüsusda səslənən təkliflərin vacibliyini diqqətə çatdırıb. Qeyd edib ki, Tovuz rayonunda aşıq sənəti muzeyi nazirlik tərəfindən yenidən qurulur. Ölkəmizin bu bölgəsi qədim saz-söz sənətimizdə xüsusi yeri olan sənətkarlar yetirib. Bu gün dünya mədəni irsi kimi qəbul edilən aşıq sənətimizin daha da inkişaf etdirilməsi bu bölgənin mədəni tanıtımı baxımdan çox vacibdir.

Nazir qəbulda səslənən bir sıra məsələlərin operativ şəkildə həll edildiyini, o cümlədən kitabxanaların yeni nəşrlərlə təminatı barədə müvafiq tapşırıq verildiyini bildirib. Sosial məsələlərə dair müraciətlərin də diqqətdə saxlanılacağı və həlli ilə bağlı aidiyyəti təşkilatlara müraciət ediləcəyi qeyd olunub. Qəbuldan sonra nazir Əbülfəs Qarayevin, nazirliyin məsul işçilərinin, Tovuz, Ağstafa, Gədəbəy, Qazax və Şəmkir rayonlarının mədəniyyət və turizm müəssisələri rəhbərlərinin iştirakı ilə müşavirə keçirilib.

Müşavirədən sonra Əbülfəs Qarayev Azərbaycan-Gürcüstan sərhədinə gedərək Qırmızı körpü tarixi abidəsi ətrafındakı vəziyyətlə tanış olub. Xramçay üzərindən salınmış Qırmızı körpü XII əsrə aid memarlıq nümunəsidir. Nazir Qazax rayonundakı "Avey" Tarix-Mədəniyyət Qoruğu ərazisindəki Damcılı qədim yaşayış məskəninə də baş çəkib.

## 14-cü Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisinin açılışına həsr olunmuş mətbuat konfransı keçiriləcək




**_Aprelin 2-4 tarixlərində Bakı Ekspo Mərkəzində 14-cü Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər, 9-cu Qafqaz Beynəlxalq Mehmanxana, Restoran və Supermarketlər üçün Avadanlıq və Ləvazimatlar və 2-ci Xəzər Beynəlxalq Kater və Yaxtalar sərgiləri keçiriləcək._**

Bununla əlaqədar olaraq, aprelin 1-də saat 12:00-da "JW Marriott Absheron Baku" mehmanxanasının "Xocasən" zalında sərgilərin açılışına həsr olunmuş mətbuat konfransı keçiriləcək. Mətbuat konfransında Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və sərgi təşkilatçısı "ITECA Caspian" şirkətinin nümayəndələri iştirak edəcək. Qeyd edək ki, kütləvi informasiya vasitələri mətbuat konfransına giriş kartı əldə etməklə, aprelin 2-də saat 11:00-da Bakı Ekspo Mərkəzində baş tutacaq sərgilərin rəsmi açılış mərasimində də iştirak edə bilərlər.

Məlumat üçün bildirək ki, sərgi Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə yanaşı, həmçinin BMT Ümumdünya Turizm Təşkilatı (BMÜTT), Azərbaycan Turizm Assosiasiyası (AzTA) və Beynəlxalq Turizm Sərgiləri Assosiasiyası (BTSA) tərəfindən də dəstəklənir. Sərginin təşkilatçıları qismində "Iteca Caspian LLC" və onun Böyük Britaniyalı tərəfdaşı "ITE Group Plc." şirkətləri çıxış edirlər.

## *"Qız qalası" baleti nümayiş olunacaq*



**_Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının rəhbərliyi Azərbaycanın görkəmli balerinası, istedadlı pedaqoq və baletmeyster, xalq artisti, Dövlət mükafatı laureatı Qəmər Almaszadənin 100 illik yubileyi münasibətilə onun xatirəsinə həsr olunmuş tamaşaların nümayişini davam etdirir._**

Sıradan növbəti tamaşa aprelin 5-də baş tutacaq Ə.Bədəlbəylinin "Qız qalası" baleti olacaq. Premyerası 1940-cı il aprelin 16-da keçirilən bu balet Azərbaycan milli baletinin ilk nümunəsidir. Qəmər Almaszadə tamaşanın quruluşçu baletmeysteri olub və uzun illər tamaşada Gülyanaq rolunu ifa edib. Artıq 75 ildir ki, "Qız qalası" Opera və Balet Teatrının repertuarında əsas yer tutur və hər zaman geniş tamaşaçı auditoriyası toplayır.

Bu dəfə nümayiş olunacaq tamaşada əsas rollarda xalq artisti Gülağası Mirzəyev (Polad), əməkdar artist Tamilla Məmmədzadə (Gülyanaq) və aparıcı solist Anar Mikayılov (Cahangir xan) çıxış edəcəklər.

Tamaşanın dirijoru xalq artisti, professor Cavanşir Cəfərovdur.

## *"Bölgələrdən paytaxta" layihəsi bu dəfə Qubaya həsr olunacaq*

Mədəniyyət və Turizm Nazirliyinin "Bölgələrdən paytaxta" adlı yeni layihəsi Bakı sakinlərini regionların sosial-iqtisadi inkişafı, zəngin mədəniyyəti, adət-ənənələri ilə tanış etməkdə davam edir. Layihə çərçivəsində Qubaya həsr olunmuş tədbir Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsi (BŞMTİ), Quba rayon mədəniyyət və turizm şöbəsinin təşkilatçılığı ilə aprelin 6-da S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında keçiriləcək. BŞMTİ-dən bildirilib ki, layihə çərçivəsində Azərbaycan mədəniyyətinin tarixini, müasir zənginliklərini və regionların adət-ənənələrini əks etdirən dekorativ-tətbiqi sənət ustalarının əl işləri sərgilənəcək, bölgənin turizm imkanları təbliğ olunacaq, incəsənət ustalarının konserti təşkil ediləcək. Aprelin 21-də Şəki, il ərzində isə Lənkəran və Gəncə şəhərlərinin, İsmayıllı, Şəmkir, Gədəbəy və Abşeron rayonlarının mədəniyyətini əks etdirən tədbirlər keçiriləcək. Tədbirlərdə hər bir regionun qədim tarixi, ənənələri, incəsənət nümunələri geniş təqdim olunacaq.

## *Üçüncü Ümumrespublika Teatr Festivalı final mərhələsindədir*

**_Milli Məclisin deputatı Jalə Əliyevanın təşəbbüsü ilə keçirilən gənclərin üçüncü Ümumrespublika Teatr Festivalı final mərhələsinə çatıb. Bakı, Ucar, Naxçıvan, Şamaxı və İmişlini təmsil edən 120-yə yaxın gənc yaradıcı kampda, təlimlərdə, fikir laboratoriyasında və məşqlərdə iştirak etmək üçün Gənclər və İdman Nazirliyinin Şüvəlanda yerləşən düşərgəsinə toplaşıb. Art-kampın keçirilməsində məqsəd gənclər arasında həm ünsiyyətin, həm də yaradıcı münasibətlərin formalaşmasına yardımçı olmaqdır._**

Tanınmış sənət adamları - A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının baş rejissoru Qurban Məsimov, əməkdar artistlər Firdovsi Atakişiyev, Nofəl Vəliyev, rejissor Cavid Təvəkkül, Azərbaycan Dövlət Yuğ Teatrının direktoru Tərlan Rəsulov 3 gün ərzində gənclərə teatr sənəti ilə bağlı bir çox incəlikləri açıqlayıblar. Mükəmməl teatr sənəti ilə məşğul olmaq üçün məktəb və peşəkarlığın vacib olduğunu diqqətə çatdıran sənətçilər ustad dərslərini əvvəlcə gənclərlə dialoq üzərində qurublar. Bir fikir xüsusi vurğulanıb ki, əsl aktyor olmaq üçün 3 şərt vacibdir: Allah vergisi olan istedad, onu cilalamaq üçün çəkilən zəhmət və şans. Müxtəlif sualları cavablandıran sənətçilərin köməyi ilə gənc aktyor və rejissorlar improvizə olunmuş səhnəciklər - etüdlər quraraq, tərəf-müqabili anlamaq, hiss etmək üçün hansı texnikaların daha təsirli olduğunu sınayıblar. Ustad dərslərində əsas fabula - "Sənətdə bəzən söz o qədər də önəmli olmur. Baxışlar, hisslər, gözlər daha çox şey ifadə edir" fikri olub.

Martın 30-dan etibarən Bakıdan 8 peşəkar və həvəskar teatr nümayəndələri, habelə Şamaxı, Ucar, İmişli və Naxçıvanı təmsil edən 4 truppa "ağ ölüm" adlandırılan bəlanı cəmiyyətdən, xüsusilə də gənclərimizdən uzaq tutmağın yollarını göstərən 12 tamaşa ilə 3 gün ərzində Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsində çıxış edəcəklər. Hazırlanan tamaşaların mövzusu da sırf narkomaniya düşkünlüyünə, qanunsuz preparatların satışına etiraz ruhunda köklənib. Təsadüfi deyil ki, festivalın sloqanı olaraq, məhz "NARKOSTOP" seçilib. Layihənin icraçı direktoru Sənan Əlləz, reallaşdıran təşkilat "BİZ - inkişaf zamanındayıq", dəstəkçiləri Gənclər və İdman, Mədəniyyət və Turizm nazirlikləri, ASSİTEJ və sıra qurumlardır.

# Mitinqlər müxalifəti bitirəcək

***Hər zaman müxalifət diqqət mərkəzinə çevrilmək üçün müxtəlif xarakterli əhəmiyyətsiz ideya və təkliflərlə çıxış ediblər. Hətta aksiyalar keçirmək ideyaları da irəli sürüblər. Daha doğrusu, mitinqlər keçirməyə cəhdlər göstəriblər.***



Amma faktlar onu deməyə əsas verir ki, mitinqlər iflasla nəticələnir. Buna baxmayaraq müxalifət aksiyalar keçirmək ideyalarını davam etdirir. Bu da xarici sifarişlərin olmasını göstərir. "Milli Şura" deyilən qurumun aprelin 5-ə yenidən mitinq təyin etməsi də xarici sifarişin olduğunu təsdiqləyir. "Yurddaş" partiyasının sədri Mais Səfərli "Səs" qəzetinə açıqlamasında bildirdi ki, "Milli Şura" üzvləri zəif sönük aksiyalarla özlərini rüsvay edirlər: "Demək olar ki, onların aksiyalarına heç kes də qatılmayır. Bununla da sözdə onların dilindən düşməyən və reallıqda isə heç bir nəticə verməyən aksiyalarını keçirmiş oldular. Amma yenidən "Milli Şura" deyilən qurumun aprelin 5-nə yenidən mitinq təyin etməsi yersiz bir hərəkətdir. Ümumiyyətlə, müxalifətçilərin məşğul olmağa heç bir işləri olmadığına görə bu cür yersiz vasitələrə əl atırlar. Aksiyaların planlaşdırılması da diqqəti özlərinə cəlb etməyə hesablanan carəsiz addımlardandır. Bununla həm də, onlar xaricdən maddi və mənəvi dəstək almağa ümid bəsləyirlər. Ancaq bəlli olan fakt odur ki, xaricdəki anti-Azərbaycan qüvvələri də, artıq müxalifətdən imtina edirlər. Bu günə qədər dəfələrlə müxalifətin dağıdıcı qanadı mitinq təyin ediblər. Amma istədikləri kimi keçirə bilməyiblər. Çünki müxalifətin heç bir sosial dayaqları yoxdur. Planlaşdırılan aksiyanın da iflasa uğrayacağını indidən söyləmək olar".

"Gah Müsavat, gah da AXCP müxtəlif ideya və təkliflərlə çıxış edir və aksiyalar planlaşdırırlar. Demək olarmı bu gün müxalifət düşərgəsində yalnız AXCP ilə Müsavat arasında rəqabət gedir" sualını cavablandıran partiya sədri bildirdi ki, AXCP ilə Müsavat arasında gedən bu rəqabət yeni deyil: "Yəni bu rəqabətin 20 ildən çox bir tarixi var. Müxalifət düşərgəsində ən çox dava-dalaş məhz bu iki partiya arasında gedib və gedəcək də. Adları çəkilən bu iki partiya, öz düşərgələrində partiya kimi fəaliyyət göstərmək əvəzinə bir-biri ilə didişirlər. Demək olar ki, onların fəaliyyətinin əsas istiqaməti biri digərini siyasi səhnədən çıxarmaqdır?! Bunun üçün də istənilən vasitədən istifadə edirlər. Bu mübarizə onların parçalanmasına gətirib çıxaracaq".

***GÜLYANƏ***

# "Milli Şura" hal-hazırda "Yurd" əcinnələri üçün saman çöpü rolunu oynayır

*Mirzə Sakit: "Sözügedən qurum iflasa uğrayıb, onun heç bir sosioloji yükü yoxdur və xalqı xoşbəxt günlərə çıxarmaq imkanından çoxdan məhrum olub"*



***Zaman-zaman qəzetimizin səhifələrində Azərbaycanın dağıdıcı müxalifət nümayəndələri haqqında həqiqətləri faktlarla yazmışıq. Əlbəttə ki, yazılanlar sensasiya xarakteri daşımasa da, əsas odur ki, insanların bildikləri və düşündükləri ilə üst-üstə düşür. Hətta radikal müxalifər düşərgəsindən olanların dediklərimizi təsdiqləməsi və əlavə məlumatlar da verməsi bir daha radikal müxalifətçilərin kim olduqlarını üzə çıxarmış olur.***

Məsələn, bu yaxınlarda Mirzə Sakit müxalifət mətbuatında çıxış edərək yenidən Əli Kərimlinin və onun əlaltılarının, həmçinin, "Milli Şura"nın kimlərə və hansı məqsədlərə xidmət etdiyini açıq şəkildə ortaya qoyub. Belə ki, Mirzə Sakit "Milli Şura" mövzusuna toxunaraq yazır ki, sözügedən qurum iflasa uğrayıb, onun heç bir sosioloji yükü yoxdur və xalqı xoşbəxt günlərə çıxarmaq imkanından çoxdan məhrum olub: "Ümumiyyətlə, heç buna cəhd də etməyib, xalq o "şura"nın fəaliyyətini heç zaman hiss etməyəcək, o "şura" hal-hazırda "Yurd" əcinnələri üçün saman çöpü rolunu oynayır. Onların heç bir tutarlı, arqumentlərə söykənən konsepsiyaları yoxdur".

O, eyni zamanda, "Milli Şura"da təmsil olunanların despot olması ilə bağlı fikirlərini də diqqətə çatdırıb: "O "şura"da təmsil olunan əsas "nüvə başlıqları"nın özləri anti-demokratik, avtoritarlığa meyilli adamlardırlar. Bunu görmək üçün mikroskopa ehtiyac yoxdu, orda təmsil olunan "Yurd" təşkilatının funksionerləri haqda sizə çox maraqlı bir söhbət edim və özünüz də onların anti-demokratik olmalarının şahidi olacaqsınız. 2010-cu ildə mənim "Azadlıq" qəzetindən haqsız yerə uzaqlaşdırılmağımla bağlı "qırğınlarımız" başlamışdı, bu haqda qəzetlər, saytlar yazırdılar.

Həmin vaxt "Yurd" təşkilatının ali məclisinin sədri hörmətli Həsən Kərimov mənə zəng edib dedi ki, gəl filan yerə, səninlə vacib söhbətimiz var. Getdim. Gedib gördüm ki, həmin yerdə Həsən Kərimov, Fuad Qəhrəmanlı, Gözəl Bayramlı, Sahib Kərimov, Şahin Həsənli, İnqilab Kərimov və "Yurd"un başqa funksionerləri yığışıblar. Həsən bəy mənə dedi ki, bax, sən qəzetlərə,saytlara müsahibələr verirsən, hakimiyyət və bizi sevməyən insanlar da bundan sevinirlər. O vaxt "Yurd"un təşkilat şöbəsinin sədri olan Şahin Həsənli cənabları dedi ki, dayanın, mən Mirzəyə bir sual verəcəm. Dedim buyur. Şahin bəy haqlı olaraq dedi ki, ay Mirzə, olmazdımı bu narazılıq öz aramızda həllini tapaydı, bu "sirrimiz" də evdən bayıra çıxmayaydı? Dedim, düz deyirsən Şahin bəy, amma indi mənim cavabımı dinlə və üzümü bir-bir onlara tutub dedim: "Həsən bəy, mənim öz işimə bərpa olunmağım haqda sizdən kömək üçün neçə dəfə xahiş etdim? Fuad bəy, sizdən neçə dəfə xahiş etdim? Gözəl xanım, sizdən neçə dəfə xahiş etdim? Sahib bəy, İnqilab bəy, Əli Kərimli ilə isə dəfələrlə bu haqda canlı söhbətimiz oldu və o da üzümə qarşı dedi ki, "Azadlıq" qəzetinin mənə qətiyyən dəxli yoxdu..." Beləliklə, özlərinin yanındaca bunu dedikdən sonra Şahin bəy etiraf edərək dedi ki, baxın bəylər, bu yerdə Mirzə haqlıdır. Amma buna baxmayaraq, bu adamlar mənə yenə başladılar qəzəl oxumağa. Dedim ki, cənablar, qəzəl yazmaqla mən məşğul oluram, vicdanınızın səsini dinləyin. Dedim və qalxıb getdim. Bundan başqa, Əvəz Zeynallı şahiddir. Bir nəfər "Yurd" funksioneri Əvəz bəyi aramızda xoşməramlı vasitəçi qismində hesab edib, onunla söhbət aparmışdı. Həmin söhbətdə Əvəz bəyə demişdi ki, Mirzə Sakitlə danış. Əgər Mirzə RATİ-nin ofisində mətbuat konfransı təşkil etsə və orda hamının yanında ayağa qalxaraq, nümayişkaranə şəkildə Əli Kərimlidən üzr istəsə, həmin gün Mirzə Sakit "Azadlıq" qəzetinə bərpa olunacaq. İnanın ki, bu sözü eşidəndə dəhşətə gəldim, mən Əli Kərimlidən hansı günahlarıma görə üzr istəməli idim axı? Bu adamların məni sındırmağa cəhd etmələrində məqsədləri nədir görəsən? Əli üzr istəməli olduğu halda nəyə görə mən üzr istəməliyəm axı?"

Göründüyü kimi, bu gün istər radikal müxalifət düşərgəsində, istərsə də ayrılıqda Müsavat və AXCP-də idarəçilik "oğru" qanunlarına əsasən həyata keçirilir. Əgər bir təşkilat daxilində tərəfdaşını "sındırmaq" istəyirlərsə və bununla da "avtoritarın" nüfuzunu saxlamağa cəhdlər edilirsə, orada artıq nə demokratik mühitdən, nə də sağlam düşüncə mühitindən danışmaq olar. Bütün bunlar bir daha radikal müxalifət düşərgəsinin, xüsusilə də, AXCP-nin necə idarə edilməsi və hansı istiqamətlərdə xidmətdə olması haqqında şəffaf fikir formalaşdırır.

***"Səs" Analitik Qrupu***

# Vatikan ermənilərin arzusunu ürəklərində qoydu



Ermənilərin 1915-ci il hadisələri üçün Vatikandan xüsusi ayin istəmələrinə Papadan rədd cavabı gəlib. Bu barədə Trend Türkiyənin Haber7 telekanalına istinadən məlumat verir. Məlumata əsasən, Türkiyənin Vatikandakı səfiri Mehmet Paşacı deyib ki, Vatikanda 12 apreldə ermənilər üçün xüsusi ayin keçirilsə də, bu ayına "Yüz il qurbanları" adı verilməyəcək. Paşacının sözlərinə görə, Vatikanın keçiriləcək ayinə " Yüz il qurbanları" adı verməməsi Türkiyə diplomatiyasının səssiz uğurudur.

# Əhməd Oruc: ""Milli Şura" müxalifətin parçalanmasına xidmət edir"



"Mitinq keçirmək hər bir siyasi partiyanın konstitusion haqqıdır. Amma baxır necə mitinq". Bu fikirləri SİA-ya Azadlıq Partiyasının sədri Əhməd Oruc "Milli Şura"nın aprelin 5-nə planlaşdırdığı mitinqinə münasibət bildirərkən deyib. Partiya sədri qeyd edib ki, "Milli Şura"nın keçirdiyi bu cür mitinqlərlə nəyəsə nail olmaq mümkün deyil: "Çünki müxalifətin bir hissəsinin iştirakı ilə keçirilən mitinqlər müxalifətdaxili parçalanmadan başqa bir şey demək deyil. O cür aksiyalarla cəmiyyətdə onlara qarşı hansısa müsbət fikrin formalaşacağı inandırıcı səslənməz. Bütünlükdə isə parlament seçkilərinin yaxınlaşdığı bir zamanda ölkədə fəaliyyət göstərən müxalifət partiyalarının birləşməyə zəruri ehtiyacın olduğunu düşünürəm. Təəssüf ki, bu kimi qurumlar, bloklar daha çox müxalifətin birliyinə deyil, parçalanmasına xidmət edir". Əhməd Oruc həmçinin parlament seçkilərinə 8 partiyanın birləşdiyi blok şəklində qatılmağı düşündüyünü deyib.

# Nyu-Cersi ştatının Baş Assambleyası 1918-ci ildə azərbaycanlıların soyqırımı qurbanlarının xatirə günü ilə bağlı qətnamə qəbul edib

ABŞ-ın Nyu-Cersi ştatının Baş Assambleyası 2015-ci il 31 mart tarixinin azərbaycanlıların soyqırımı qurbanlarının xatirə günü kimi müəyyən olunması ilə bağlı qətnamə qəbul edib. Qətnaməni Nyu-Cersi ştatı parlamentinin üzvü Şila Oliver təqdim edib. Assambleyanın sədri Vinsent Priyetonun imzaladığı sənəddə azərbaycanlıların soyqırımının 97-ci ildönümünün qeyd edildiyi bildirilir. Qətnamədə deyilir ki, 1918-ci ilin 31 mart hadisələri dünya tarixində ən çox pislənilən qanlı cinayətlərdən biridir. Qeyd edilir ki, azərbaycanlıların soyqırımı son illər ABŞ-ın bir neçə ştatında qətnamə və proklamasiyalar ilə tanınıb. Amerika-Azərbaycan Cəmiyyətinin və "Pax Turcica" İnstitutunun səyləri ilə Nyu-York ştatının Senatı 1918-ci ildə azərbaycanlıların soyqırımını tanıyan J3784 nömrəli qətnaməni 2012-ci ildə, Nyu-Cersi ştatının Assambleyası isə analoji sənədi 2013-cü ildə qəbul edib. ABŞ Azərbaycanlıları Şəbəkəsinin Amerika ictimaiyyətinin məlumatlandırılması kampaniyası nəticəsində azərbaycanlıların soyqırımı Nevada ştatının qubernatorları Cim Qibsonun və Brayan Sandavalın 2009-2011-ci illərdə üç rəsmi proklamasiyası və 2011-ci ildə Texas ştatında konqresmen Con Zervasın qətnaməsi ilə də tanınıb.


New Jersey General Assembly

ASSEMBLY RESOLUTION

# AXCP ilə Müsavat arasında yeni qarşıdurma

*Növbəti mitinqin də Müsavatsız keçəcəyi bəlli oldu*

***Həmişə olduğu kimi, seçkiərəfəsi AXCP ilə Müsavat partiyası arasında münasibətlər yenidən gərginləşdiyi kimi, qarşıdakı növbəti parlament seçkiləri ərəfəsi bu gərginlik pik nöqtəsinə çatıb. Xüsusilə də, AXCP sədri Əli Kərimlinin martın 15-də "Milli Şura"nın keçirəcəyi mitinqə gəlməyənləri tənqid etməsi bu iki partiyanın bir-birinə düşmən olan münasibətini daha da alovlandırıb. Belə ki, Əli Kərimli Müsavatı hakimiyyətə işləməkdə suçlamışdır. Ancaq Müsavatdan buna reaksiya gəlməsi münaqişə ocağını daha da alovlandırdı.***

### Arif Hacılı: "Milli Şura"nın qərarları ilə bizim fikirlərimiz üst-üstə düşmədiyi üçün növbəti mitinqə də qatılmaq fikrimiz yoxdur"

Müsavat partiyasının başqanı Arif Hacılı Müsavatda mitinq komitəsi yaradıldığını, partiya strukturları ilə məsləhətləşmələrin yekununda yaxınlarda keçirəcəkləri aksiyanın günü və şüarları barədə qərar qəbul edəcəklərini söyləyib. Onun sözlərinə görə, müxalifətin kütləvi aksiyaları birlikdə keçirməsinin tərəfdarıdırlar: "Ancaq "Milli Şura"nın bu məsələlərdə mövqeyi fərqlidir və onlar təkbaşına kütləvi aksiyalar keçirmək barədə qərar qəbul ediblər. Bu, onların hüququdur. Müsavat partiyasının nə "Milli Şura", nə də AXCP ilə birlik nümayiş etdirməsi olmayacaq".

Müsavat başqanı, həmçinin "Milli Şura"nın sədri Cəmil Həsənli ilə görüşəndə partiyasının aksiyaya dəstək verəcəyi barədə təklif irəli sürməsinə də münasibət bildirib: "Mən Cəmil Həsənliyə Müsavat partiyası adından öz təklifimi verdim, ancaq təklifimə bu günə kimi cavab almamışam".

A.Hacılı martın 15-də olduğu kimi, aprelin 5-də də keçiriləın aksiyada iştirak etməyəcəklərini bildirib və bunun səbəbini də açıqlayıb: "Müsavat partiyasının üzvlərinə bu aksiyada iştirakla bağlı sərbəstlik verilmişdi. Ancaq açıq-aydın göründü ki, AXCP rəhbərliyi bizim bu aksiyalarda iştirakımızı arzulamır. Buna görə də, növbəti aprelin 5-də keçiriləcək mitinqdə də iştirak etməyi siyasi etikaya uyğun saymırıq".

### Nə qədər ki, o mitinqə Əli Kərimli rəhbərlik edir, vay...

Müsavat məclisinin üzvü Mustafa Hacıbəyli isə deyib ki, "Milli Şura"nın mitinqi çox zəif keçdi: " Nə qədər ki, o mitinqə Əli Kərimli rəhbərlik edir, vay... Bir mitinqdə 500-600 adamın iştirak etməsi kütləvi mitinq sayıla bilməz. Təəssüf ki, "Milli Şura" bu mitinqin kütləvi olması üçün vacib olan addımı ata bilmir və bilməyəcək də". M.Hacıbəyli mitinq məsələsində "Milli Şura"nın Müsavat partiyasını qabaqlamasına münasibət bildirərək bunun prinsipial məsələ olmadığını söyləyib: "Müsavat partiyası öz partiya maraqlarından yox, demokratik düşərgənin və dövlətin maraqlarından çıxış edir".

M.Hacıbəyli qeyd edib ki, "Milli Şura"nın əvvəlki mitinqi ilə müqayisədə, martın 15-də keçirilən aksiya heç də özünü doğrultmadı və növbəti aprelin 5-də keçiriləcəyi nəzərdə tutulan mitinqin də ondan daha zəif olacağı danılmazdır: "Manatın devalvasiyası və bundan doğan iqtisadi böhran əhali tərəfindən mənfi qarşılanıb. Hazırda ictimai rəydə olan tələbatın fonunda bu mitinq gözlədiyimizdən zəif keçdi".

AHC MÜSAVAT

### Niyaməddin Orduxanlı: "Bir daha sübut olundu ki, Azərbaycan xalqı, hətta Əli Kərimlinin "sosial aksiya" adı ilə təyin etdiyi mitinqə dəstək vermir"

BAXCP sədrinin müavini Niyaməddin Orduxanlı isə açıqlamasında deyib ki, bir daha sübut olundu ki, Azərbaycan xalqı, hətta Əli Kərimlinin "sosial aksiya" adı ilə təyin etdiyi mitinqə dəstək vermir: "Bu adam bu mitinqi siyasi deyil, sosial aksiya kimi təqdim edirdi və bütün təbliğatını da buna yönəltmişdi. Mitinqin keçirilməsinin səbəbini keçən ayda ABŞ dollarının Azərbaycan manatı ilə müqayisədə bahalaşmasına görə elan etmişdi. Mitinqdən əvvəl də mən yerli mətbuata demişdim ki, Əli Kərimli heç bir ciddi dəstək qazanmayacaq. Bu adam istəyirdi ki, görsün əhali bu vəziyyətdə onun çağırışına dəstək verəcək, ya yox. Ancaq unudur ki, xalq Əli Kərimlini son 22 ildə çox yaxşı tanıya bilib. Xalq yaxşı bilir ki, Əli Kərimlinin Əbülfəz Elçibəyə etdiyi xəyanət hansı formada olub. Bu adam kimlərə xəyanət etməyib ki? O hər kəsi öz maraqlarına qurban verənin biridir. Özünə hörmət edən siyasətçi Əli Kərimli ilə müttəfiqlik etmir. Hətta xanım siyasətçilər də. Vaxtilə Lalə-Şövkət Hacıyeva Əli Kərimlinin etdiyi xəyanətə görə demişdi ki, "əyninə şalvar geyinən hər kişiyə kişi demirlər". Lalə xanımın bu fikirlərini mətbuatdan tapıb oxuya bilərsiniz. Digər tərəfdən, bu adam 2013- cü ildə Rusiyanın dəstəyi ilə "Milli Şura" adı ilə hakimiyyətə gəlmək istəyirdi və buna görə Rusiya prezidenti Vladimir Putini "böyük demokrat" adlandırdı. İndi isə utanmadan mitinqə Avropa İttifaqının bayrağı ilə çıxır. Bu riyakar siyasətçiyə kim dəstək verər? Baxın, araşdırın görün vətəndaşlardan neçə nəfər Əli Kərimlinin çağırışı ilə mitinqə qatılmışdı? Heç kim. Mitinqə gələnlər öz ailə üzvüləri və hakimiyyətdən qovulan Gültəkin Hacıbəyli, polislər və jurnalistlərdir. Dünən mən facebook.com sosial şəbəkəsində mitinqin yüksəklikdən çəkilən şəkilini yaymışam. Baxın, görün buna mitinq demək olar , ya yox".

Bütün bu proseslər bir daha göstərir ki, daima intriqa və qarşıdurmalarda olan hər iki partiya nə mitinq keçirməkdə, nə də birgə əməkdaşlıq formatında birlikdə ola bilməyəcəklər.

**R.HÜSEYNOVA**

## Müxalifətdə mübarizə predmeti yaddan çıxıb

*İsgəndər Həmidov: "Müxalifət elə pərakəndə haldadır ki, seçkilərdə mübarizə aparmaq imkanında deyil"*

Bu ilin noyabrında ölkəmizdə növbəti parlament seçkiləri keçiriləcək. Müxalifətin parlament seçkilərində iştirakına və imkanlarına münasibət bildirərkən AMDP sədri İsgəndər Həmidov bildirib ki, müxalifət liderlərinin parlament seçkilərində qələbə qazanacaqları ilə bağlı səsləndirdikləri iddialar boş hay-küydən başqa bir şey deyil. İ.Həmidov qeyd edib ki, bu gün Azərbaycan müxalifəti bir-birini qırır: "Azərbaycan müxalifətində bu proseslər gedir. Müxalifətdə mübarizə predmeti yaddan çıxıb, bir-biri ilə çəkişmə önə çıxıb. "Milli Düşüncə Mərkəzi"ndə hər həftə yığışıb çox dərin analitik təhlillər aparırıq. Təhlillərimizin nəticəsində belə bir razılığa gəlmişik ki, müxalifət 125 yerin hamısına namizəd verməməlidir".



İ.Həmidov müxalifət liderlərinin çağırışlarına, onların seçkidə guya qələbə qazanacaqları ilə bağlı səsləndirdikləri iddialara daha sərt şəkildə münasibət bildirib: "Özümüzü aldatmayaq, müxalifət elə bir vəziyyətdədir ki, onun bütün dairələrdə mübarizə aparmağa gücü çatmayacaq. Müxalifətin maddi resursları da yoxdur ki, bunu təmin etsin. Üçüncüsü, müxalifət elə pərakəndə haldadır ki, qabaqkı kimi bütün dairələrdə mübarizə aparmaq imkanında deyil".

**Samir**

# Tanımayan sayta istinad edən bədbəxt "Azadlıq"

*Əli Kərimli indi də "uşaq-muşaq" oyunu oynayır*

***Azərbaycanda Avropa Oyunlarının keçirilməsi günü yaxınlaşdıqca, ölkəmizə qarşı qısqanclıq hissi keçirən, qərəzli və böhtanlı, eləcə də təsdiq edilməyən məlumatlar yayan bəzi xarici dairələr, onlara məxsus media orqanları çirkin niyyətlərini davam etdirməkdədirlər. Bütün bunlarla yanaşı, ölkənin qaragüruhçu, erməni dəyirmanına su tökən müxalifət təmsilçiləri də həmin dairələrin verdikləri "informasiyaları" necə deyərlər, "bəh-bəhlə" tirajlayırlar.***

Hansı ki, həmin "informasiyaların" mənbələri kifayət qədər şübhəlidir və inandırıcı deyil. Məsələn, biavasitə AXCP sədri Əli Kərimlinin nəzarətində olan "Azadlıq" qəzeti Britaniyada fəaliyyət göstərən və reytinqinə görə ən aşağı səviyyədə yer alan, ictimai rəydə tanınmayan, eləcə də yalnız göstərişlər, təlimatlar əsasında informasiya yayan bir "sayta" istinad edərək, guya Azərbaycanda keçiriləcək Avropa Oyunlarının "2-ci dərəcəli" (?!-R.R.) olduğunu sevincək şəkildə iddia edib. Hətta bu da azmış kimi, ölkənin ictimai rəyində çaşqınlıq yaratmaq məqsədilə ən rəzil təxribata belə əl atıb. Sən demə, Əli Kərimli yatıb və yuxusunda görüb ki, "əsl Avropa Oyunları 2018-də Berlin və Qlazqoda keçiriləcək"miş (??!!-R.R.).

Ancaq ortaya heç bir fakt qoya bilməyən Əli Kərimlinin "Azadlığ"ı guya Qlazqoda velosiped, avarçəkmə və triatlon yarışlarının, Berlində isə yüngül atletikaya aid olan idman növləri üzrə yarışların təşkil olunacağını yazıb. Ancaq burada özü-özünü ifşa edib. Buna sübut kimi deyə bilərik ki, Qlazqoda keçiriləcək velosiped, avarçəkmə və triatlon yarışları idman nəqliyyatından istifadə edilən idman növləridir və bu yarışlar çempionat qismində baş tutacaq. Berlində isə yalnız yüngül atletika növü üzrə yarışlar keçiriləcək ki, burada digər heç bir idman növü təmsil olunmayacaq. Belə bir məqamda "Azadlıq" qəzetinin və bu qəzeti bilavasitə idarə edən Əli Kərimlinin siyasətlə deyil, "uşaq-muşaq" oyunu oynaması kifayət qədər sübuta yetirilmiş olur.




İndi isə, yersiz və gülünc iddialarla ictimai rəydə çaşqınlıq yaratmaq məqsədilə tanınmayan bir sayta istina edərək, özünü rüsvay edən Əli Kərimlinin və onun "Azadlığ"ının nəzərinə bir neçə silləlik sübutu etmək istərdik:

1. 2015-ci ilin iyununda baş tutacaq idman yarışları, Azərbaycanın paytaxtı - Bakıda keçiriləcək bir çox innovativ idman növünü özündə cəmləşdirən ilk Avropa oyunlarıdır.

2. Oyunlar Avropanın 49 Milli Olimpiya Komitəsini birləşdirən Beynəlxalq Olimpiya Təşkilatı tərəfindən keçirilir. 12-28 iyun tarixləri arasında keçiriləcək oyunlarda 49 ölkədən 20 idman növü üzrə 6000-dən çox idmançının yarışacağı artıq qətiləşdirilib.

İdman növləri isə bunlardır: yüngül atletika, gimnastika, üzgüçülük, suya tullanma, sinxron üzgüçülük, su polosu, çimərlik futbolu, çimərlik voleybolu, basketbol, voleybol, boks, qılıncoynatma, karate, taekvondo, badminton, stolüstü tennis, oxatma, cüdo, güləş, sambo, atıcılıq, dağ velosipedi, velosiped yarışları, triatlon, avarçəkmə. Onlarla ölkə bu oyunları canlı olaraq, dünyaya və Avropaya təqdim edəcək.

Məhz bütün bunlardan sonra Əli Kərimlinin hansısa bir nüfuzsuz, böyük ehtimalla erməni lobbisinin nəzarətində olan ingilis saytına istinad edərək, özündən hoqqabazlıqlar çıxarması sadəcə olaraq, gülüş və istehza doğuran bir əlamətdir.

Məsələ burasındadır ki, Avropa Atletləri Təşkilatı öz nümayəndələrini Bakıdakı yarışa göndərməkdən imtina edərək, qabaqcadan müəyyənləşdirmiş təqvimdə dəyişiklik etməyəcəklərini bildirib. Bütün bunlar isə bir daha təsdiq edir ki, Əli Kərimli əlində olan bütün anti-təbliğat vasitələrinin səmərə vermədiyini dərk edərək, indi də uşaq bağçasında olduğu kimi, "uşaq-muşaq" oyunu oynamağa səy göstərir. Ancaq görünən budur ki, onun oynadığı bu oyun kimsədə maraq doğurmur. Yaxşı olardı ki, AXCP sədri öz ağalarından təlimat alarkən, Avropa Oyunları zamanı ağlaması üçün bir yeşik uşaq əmziyi də alsın. Çünki bu oyunların möhtəşəmliyi onu 100% ağlatmalı olacaq. Ağlayan uşağın ağzına isə əmzik verilir. Özü də sterilizə olunmuşundan...

**Rövşən RƏSULOV**

# Hüquqi dövlət quruculuğu və müstəqilliyin möhkəmləndirilməsində YAP-ın rolu

***Müstəqilliyini yenicə əldə edən Azərbaycan Respublikasında 1991-ci ildən 1993-cü ilin iyun ayına qədər YAP-ı çıxmaq şərti ilə digər siyasi partiyalar üçün müxalifətin siyasi sistemdə tutacağı yer qeyri-müəyyən idi. İstər Mütəllibov, istərsə də AXC-Müsavat iqtidarına qarşı müxalifətdə duranların proqramları və fəaliyyət metodları qeyri-müəyyən xarakter daşıyırdı. Heydər Əliyevə qədərki siyasi müxalifətin ictimai-siyasi prosesləri qiymətləndirmə meyarları da ziddiyyətli və bitərəfli idi.***

Hərtərəfli analitik təhlillər və empirik müşahidələr göstərir ki, ümumiyyətlə, YAP istisna olmaqla Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların ziyalılara və yüksək intellektual səviyyəli insanlarla münasibətlərində daim problemləri olub. İstər Ayaz Mütəllibov, istərsə də AXC-Müsavat hakimiyyəti iqtidarda olduqları vaxt göstərilən kateqoriyaya aid olan insanların nüfuzunu qiymətləndirə bilməmiş, yalnız hakimiyyəti itirmək təhlükəsi yarananda onları yada salmış və müraciət etmişdir.

Yuxarıda göstərilənlərin ümumiləşdirilməsindən aydın olur ki, Dahi Öndər Heydər Əliyev Azərbaycanın siyasi sistemində müxalifətin hansı yeri tutmasını da müəyyənləşdirdi. O, hələ Yeni Azərbaycan Partiyası yarananadək Naxçıvan MR Ali Məclisinin Sədri olarkən müstəqil dövlətçilik mənafeyini ali dəyər kimi üstün tutduğunu dəfələrlə sübut etmişdir. YAP yarananda isə onun Proqramında aydın şəkildə yazıldı: "Bizim şüarımız - müxalifət naminə müxalifət ola bilməz. Bizim prinsipimiz - konstruktivizmdir".

Bu prinsip partiya təsis olunduğu vaxtdan bu günə qədər onun fəaliyyətinin əsasında dayandı və bu mövqeyə daim bağlılıq nümayiş etdirilmişdir. Heydər Əliyev bununla bağlı olaraq deyirdi: "Yeni Azərbaycan Partiyasının başlıca prinsipi konstruktiv əməkdaşlıqdır. Müxalifət naminə müxalifət ola bilməz. Bugünkü vəziyyətdə xalq həmrəy olmalı, əl-ələ verməlidir. Təəssüf ki, indi bunun əvəzinə qarşıdurma güclənir. YAP Azərbaycanı böhran vəziyyətindən çıxarmaq üçün bütün siyasi partiyalarla, ictimai qurumlarla əməkdaşlığa hazırdır".

Göründüyü kimi Ulu Öndər Heydər Əliyev Azərbaycan cəmiyyətinə siyasi müxalifətçilik mədəniyyətinin, vətəndaş həmrəyliyinin, bütün siyasi partiyalarla sivil əməkdaşlığın fəal tərəfdarı kimi çıxış edir. Bu cür mövqe tutmaq partiyalararası münasibətlərin sivil, demokratik əsaslarda formalaşması üçün geniş imkanlar açır.

Prinsip etibarilə konstruktiv müxalifətçilik mövqeyini tutmaq demokratik cəmiyyətin əsas cəhətlərindən biri olsa da, 1992-1993-cü illərdə AXC- Müsavat iqtidarı onu qəbul etməyi bacarmadı. YAP-ın təsis konfransının Bakıda keçirilməsinə həmin hakimiyyətin imkan verməməsi siyasi müxalifətə düşmən mövqedə dayanmağın bariz nümunəsi idi. Nüfuzlu və perspektivli siyasi təşkilatın formalaşması ilə barışmayan həmin iqtidar YAP və onun fəallarına qarşı ən irticaçı metodlara əl atmağa başladı. Partiyanın sədr müavini Murtuz Ələsgərov naməlum şəxslər tərəfindən qəddarcasına döyüldü, partiyanın qərargahına silahlı basqın təşkil edildi, ayrı-ayrı regionlarda partiya fəallarına qarşı zorakılıq əməllərinə yol verildi. AXC-Müsavat hakimiyyəti Yeni Azərbaycan Partiyasına və onun Sədri Heydər Əliyevə qarşı təqib və təzyiqlərə əl atdı.

Ümummilli Lider Heydər Əliyev AXC-Müsavat hakimiyyətinin Ona və YAP-a qarşı təzyiqlərini xatırlayaraq deyirdi: "Partiya yaranandan sonra - 1993-cü ilin fevral ayında mən böyük qardaşımın vəfatı ilə əlaqədar Bakıya gəlmişdim. O vaxt mən Nərimanov rayonunda partiyanın fəalları ilə bir-iki gün görüş keçirdim. Üçüncü gün isə orada bizim qarşımızı aldılar, hətta bu partiyanın görüşlərinin keçirilməsinə də imkan vermədilər. Baxmayaraq ki, bizim partiyamız qeydiyyatdan keçmiş leqal bir partiya idi, burada gizli heç bir şey yox idi".

Ulu Öndər Heydər Əliyev idarəetmə sahəsində özünün zəngin dövlətçilik təcrübəsindən istifadə edərək YAP-ın formalaşmasında, onun cəmiyyətin siyasi sistemində layiqli yer tutmasında böyük xidmətlər göstərmişdir. O, AXC- Müsavat iqtidarı dövründə siyasi partiya sədri kimi qarşısına siyasi hakimiyyəti əldə etməyi deyil, siyasi hakimiyyətin fəaliyyətini yaxşılaşdırmaq üçün mükəmməl proqram hazırlamağı və normal idarəçilik prinsiplərinə üstünlük verməyi zəruri hesab edirdi.

Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyevin konstruktiv müxalifətçiliyi yalnız Azərbaycan cəmiyyəti tərəfindən deyil, xarici dövlətlərin nüfuzlu siyasi dairələri tərəfindən də təqdir olunurdu. Heydər Əliyevin Naxçıvana rəhbərlik etdiyi dövrdə KİV-də həmin dairələrin Heydər Əliyevlə əməkdaşlığın zəruri olduğunu bildirməsi bu görkəmli dövlət xadiminin yüksək nüfuzü ilə bağlı idi. Məhz bu faktor ağır sosial-iqtisadi vəziyyətlə üzləşmiş Naxçıvanın problemlərinin həllinə müsbət təsirini göstərirdi.

Heydər Əliyev blokada şəraitində yaşayan Naxçıvanın sosial-iqtisadi böhrandan xilas olması istiqamətində mühüm addımlar atması ilə yanaşı, Sədri olduğu YAP-ın da təşkilati və ideoloji baxımdan güclənməsi yönündə böyük xidmətlər göstərdi. O, bununla bağlı olaraq deyirdi: "Partiya yaranarkən bu, əhali tərəfindən çox rəğbətlə qarşılandığı halda, təəssüf ki, bəzi partiyalar, o cümlədən, o vaxtkı iqtidar tərəfindən mənfi qarşılandı. Bəziləri hesab edirdilər ki, bu zəif partiya olaraq, güclü partiya olmayacaqdır, cəmiyyətdə öz yerini tuta bilməyəcəkdir. Görünür onlar çox dar düşüncəli insanlar idi. Mən o vaxt da belə düşünürdüm".

Ancaq həyat YAP-ın güclü bir siyasi təşkilat, onun Lideri Heydər Əliyevin isə müstəqil Azərbaycan ölkənin dövlətinin qurucusu kimi görkəmli şəxsiyyət olduğunu sübut etdi. Çox qısa bir müddətdən sonra Azərbaycan xalqı Dahi Öndər Heydər Əliyevin üzərinə tarixi bir missiya qoydu. Elə o vaxtdan da Yeni Azərbaycan Partiyasının həyatında tarixi bir səhifə açıldı. Siyasi hakimiyyətə qayıtdıqdan sonra Ulu Öndər Heydər Əliyevin qısa vaxt ərzində cəmiyyətdə ictimai-siyasi sabitliyin bərqərar olması yönündə mühüm addımlar atması, ən başlıcası ölkədəki kriminogen durumun aradan qaldırılmasının zəruriliyini ön plana çəkməsi ictimaiyyətdə nikbin əhvali-ruhiyyə yaratmağa başladı.

Ulu Öndər Heydər Əliyevin apardığı siyasət cəmiyyətdə ictimai-siyasi sabitlik yaratmağa və demokratik cəmiyyətin əsaslarını formalaşdırmağa imkan verdi. Qısa bir müddət ərzində görülən işlər Dağlıq Qarabağ probleminin həllinə də təsir göstərməyə, ölkəmizin beynəlxalq aləmdə nüfuzlu dövlətlərin köməyinə arxalanmasına gətirib çıxardı.

Dahi Öndər Heydər Əliyevin dövlət idarəetmə səriştəsini daim yüksək qiymətləndirən Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının müəyyənləşdirdiyi siyasi xəttin düzgünlüyünün bir daha şahidi oldu. Ümummilli Lider Heydər Əliyev siyasi hakimiyyətə qayıtdıqdan sonra da aydın oldu ki, bu görkəmli dövlət xadimi Yeni Azərbaycan Partiyasının ölkəmizin siyasi sistemində mühüm yer tutmasında maraqlıdır və bu təşkilatın onun şəxsiyyətinə layiq olan siyasi qüvvə kimi formalaşması arzusundadır. Ulu Öndər Heydər Əliyev YAP-ın dövlət idarəetmə sistemində hansı prinsiplər əsasında təmsil olunması məsələsinə də özünəməxsus şəkildə yanaşdı.

Vaxtilə, Azərbaycan ictimaiyyəti AXC-Müsavat iqtidarının təmsil etdiyi siyasi təşkilatlar üçün xüsusi status yaratması ilə tanış olmuşdu. Əbülfəz Elçibəy prezident seçiləndən sonra bütün məsul dövlət vəzifələrinə ancaq Xalq Cəbhəsinin və Müsavat partiyasının nümayəndələri təyin edilirdilər. Bu halda onların kadr professionallığı deyil, mitinq hərəkatı zamanı göstərdikləri fəallıq nəzərə alınırdı. Həmin dövrdə vətəndaşlar zorla AXC və Müsavat partiyalarına üzv yazılır, rəsmi KİV isə yalnız həmin təşkilatların təbliğatı ilə məşğul olurdu. Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra AXC-Müsavat iqtidarının demokratik dəyərlərə zidd olan yuxarıda göstərdiyimiz ənənəsi aradan qaldırıldı.

Ulu Öndər Heydər Əliyev bu barədə deyirdi: "Bakıya gələndən sonra Ali Sovetin sədri, sonra prezident seçildim. Bu vaxt ayrı-ayrı partiyalarda bəzən elə fikir yarandı ki, bir dövlət başçısı kimi Dahi Öndər Heydər Əliyev yalnız Yeni Azərbaycan Partiyasını dəstəkləyəcəkdir, bu partiyaya yol açacaqdır və Yeni Azərbaycan Partiyası hakim partiya olacaqdır. Belə fikirlər Yeni Azərbaycan Partiyasının daxilində də çox olub. Ancaq siz bilirsiniz ki, mən bir- iki dəfə mətbuat konfranslarında bəyanat verdim ki, mən Azərbaycanın dövlət başçılığına Yeni Azərbaycan Partiyasının fəaliyyətinin nəticəsində yox, bütün Azərbaycan xalqının iradəsi ilə gəlmişəm". Ulu Öndər Heydər Əliyev daha sonra qeyd edir: "Ona görə indi gəlib dövlət başçısı olduğum halda vaxtilə mənə ən yaxın olan, məni ən çox dəstəkləyən, mənə qayğı göstərən adamları, Yeni Azərbaycan Partiyasını dəstəkləsəm, ümum-Azərbaycan xalqına qarşı ədalətsizlik etmiş olardım".

Ulu Öndər Heydər Əliyev bununla da sosialist idarəetmə sistemindən miras qalmış ənənəni - dövlət strukturları üzərində hakim partiyanın hegemonluğu prinsipini qəbul etmədi. AXC-Müsavat iqtidarı dövründə "Sov.İKP" ənənəsi davam etdirilsə də, Prezident Heydər Əliyev həmin vəziyyətə son qoydu və cəmiyyətin tərəqqisinə demokratik prinsiplər vasitəsilə nail olmağın mümkünlüyünü göstərdi. Dahi Öndər Heydər Əliyev öz fəaliyyəti ilə sübut etdi ki, dövlət başçısı kimi ölkəmizdə fəaliyyət göstərən bütün siyasi partiyalara eyni münasibət göstərir. Ulu Öndər Heydər Əliyev çıxışlarının birində bildirir: "Mənim Bakıya qayıtmağım təkcə Yeni Azərbaycan Partiyasının fəaliyyətinin nəticəsi deyildir. Baxmayaraq ki, Yeni Azərbaycan Partiyası buna böyük cığırlar açmışdır".

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 31 mart

## Dünyanın məşhur milyonerləri Monakoda yaşayır

Beynəlxalq " Wealthinsght" analitik portalı dünyanın məşhur milyonerlərinin daha çox yaşadıqları 20 şəhərin siyahısını tərtib edib. Siyahıda əsasən daşınmaz əmlakları deyil, bank hesablarında yalnız xalis milyonları olan şəxslər yer alıblar. Siyahıya Monako şəhəri başçılıq edir. Dünya milyonerlərinin 29,21 faizi məhz bu şəhərdə yaşayır. İkinci yerdə 27,34 faizlə İsveçrənin Sürix şəhəri yer alıb.



Bu ölkənin daha bir şəhəri - Cenevrə 17,92 faizlə üçüncü yerdədir. Sonrakı yerlərdə Nyu York (4,63 faiz), Frankfurt (3,88), London (3,39), Oslo (2,90), Sinqapur (2,80), Amsterdam (2,67), Florensiya (2,59), Hong Kong (2,58), Roma (2,54), Dublin (2,40), Doha (2,34), Toronto (2,29), Venesiya (2,25), Brüssel (2,11), Hyuston (2,9), San-Fransisko (2,7) və Paris (2,4) qərarlaşır. Siyahıdan göründüyü kimi dünyanın məşhur milyonerlərinin əksəriyyəti Avropa şəhərlərində məskunlaşıblar. Buna səbəb, həmin şəhərlərin ətraf mühitinin yaşamaq üçün daha əlverişli olması göstərilir.

## ELAN

ADPU-nin Fizika fakültəsinin I kurs tələbəsi Əlizadə Ülkər Fazil qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır.

X X X

ADPU-nin Kimya fakültəsinin I kurs tələbəsi Zülfüqarova Jalə Zaur qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır.

X X X

ADPU-nin Kimya fakültəsinin I kurs tələbəsi Əliyeva Şəhanə Rafail qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır.






## Güləşçilərimiz Avropa çempionatında doqquz medal qazanıblar

Polşanın Valbrzix şəhərində güləş üzrə U-23 Avropa çempionatı başa çatıb. İlk dəfə keçirilən çempionatda 19-23 yaş arası idmançılar mübarizə aparıblar. AZƏRTAC xəbər verir ki, çempionatın son günündə 66, 75, 85 və 130 kiloqram çəki dərəcələrində yunan-Roma güləşçiləri mübarizə aparıblar. Turnirdə 85 kiloqram çəki dərəcəsində mübarizə aparan gənclər arasında dünya və Avropa çempionu İslam Abbasov yarışa Ukrayna və İsveç güləşçiləri üzərində ardıcıl qələbə ilə başlayıb. Almaniya təmsilçisi ilə gərgin keçən görüşdə uduzan güləşçimiz rəqibin finala yüksəlməsi ilə təselliverici görüşə qatılıb. Rusiya idmançısı ilə bərabər səviyyəli görüşdə qalib olan İ.Abbasov bürünc medal uğrunda həlledici görüşə çıxıb. Bolqarıstan idmançısı üzərində qələbə güləşçimizə bürünc medal qazandırıb. Çempionatda yığmamız ümumilikdə 9 medal qazanıb. İki gümüş (Məhəmmədhacı Xatiyev (86 kq) və Nurməhəmməd Hacıyev (97 kq)) və 2 bürünc medal (Məhəmməd Müslümov (65 kq) və Əli Maqomedabirov (125 kq)) sərbəst güləşçilərin, 1 qızıl (Alyona Kolesnik (55 kq)) və 2 bürünc medal (Solmaz Həşimzadə (53 kq) və Elmira Qəmbərova (63 kq)) qadın güləşçilərin payına düşüb. Yunan-Roma güləşçilərimizdən Eldəniz Əzizli (59 kq) də çempionatı üçüncü pillədə başa vurub.

## "Qarabağ" daha iki futbolçu ilə yeni müqavilə bağlayır



"Qarabağ" daha iki futbolçusu ilə yeni müqavilə imzalamağa hazırlaşır. Apasport.az saytının məlumatına görə, müdafiəçi Maksim Medvedev və yarımmüdafiəçi Vüqar Nadirov da karyerasını Ağdam klubunda davam etdirəcək. Hazırda "Qarabağ"da müqavilə müddəti mövsümün sonuna qədər olan cəmi iki futbolçu var ki, onlar da Maksimlə Vüqardı. Lakin mövsüm başa çatmamış hər iki oyunçu ilə yeni sazişin bağlanması gözlənilir. Rəhbərlik milli üzvləri ilə artıq görüşüb və razılıqları alıb. Çox güman ki, Nadirov 2, Medvedev isə 3 illik müqavilə imzalayacaq. Qeyd edək ki, 28 yaşlı Vüqar Nadirov 2009-cu ildən, 26 yaşlı Maksim Medvedev isə 2006-cı ildən "Qarabağ"ın formasını geyinir. Hər iki oyunçu elə Ağdam klubunun yetirməsidi.



## "Kral mənəm, yeni kral olmayacaq"

Əfsanəvi futbolçu Pele yeni maraqlı açıqlaması ilə diqqət mərkəzinə düşüb. Qol.Az-ın Braziliya mətbuatına istinadən yaydığı xəbərə görə, "Futbol kralı" adını daşıyan braziliyalı yeni Pelenin heç vaxt olmayacağını bildirib. "Futbolun kralı mənəm. Yenə kral da olmayaq. Pele də həmçinin. Çünki atam və anam artıq fabriki bağlayıb" - deyə o bildirib.

## Türkiyə "Bakı-2015"ə 153 idmançı ilə gəlir

Türkiyə Milli Olimpiya Komitəsi (TMOK) "Bakı-2015" birinci Avropa Oyunlarının proqramına daxil olan bütün - idmanın 20 növü üzrə təmsil ediləcək. Qol.A-ın "Report" informasiya agentliyinə istinadən yaydığı xəbərə görə, Türkiyə Bakıda keçiriləcək yarışa 153 idmançı göndərəcək. Onlardan 90-ı kişi, 63-ü isə qadındır. Türkiyə "Bakı-2015"də atıcılıqda 4, atletikada 1, bədii gimnastikada 4, basketbol 3X3 üzrə 8 (bir kişi və bir qadın komandası), velosiped idmanında 6, boksda 13 (4 qadın və 9 kişi), qılıncoynatmada 3, güləşdə 24, cüdoda 2, kanoedə 6, karatedə 11 (5 kişi və 6 qadın), stolüstü tennisdə 2, kamandan oxatmada 2, çimərlik voleybolunda 4 (2 kişi komandası), samboda 1, sinxron üzgüçülükdə 10, su polosunda 13 (kişi komandası), triatlonda 3, voleybolda 24 (1 kişi və 1 qadın komandası), üzgüçülükdə 12 idmançı ilə mübarizə aparacaq.

## "Neftçi" klubu: "Dəyişiklik gözlənilir"

"Neftçi" Sadıq Sadıqovun istefası ilə bağlı yayılan xəbərlərə rəsmi münasibət bildirib. Qol.Az-ın klubun saytına istinadən yaydığı xəbərə görə, məlumatda bildirilir ki, Sadıq Sadıqov "Neftçi" İdman Klubu İctimai Birliyinin rəhbəri, eyni zamanda "Neftçi" PFK-nın da prezidentidir. Bununla belə, klub bəyan edib ki, "Neftçi" PFK bir müddət əvvəl "Neftçi" İdman Klubu İctimai Birliyinin tərkibinə verilib. Klub bununla bağlı bəzi Nizamnamə və struktur dəyişiklikləri gözlənildiyini təsdiqləyib: "Bu haqda ictimaiyyətə məlumat veriləcək".

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız:Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi,32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500